RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 267 (9146) ÇƏRŞƏNBƏ, 7 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Xilaskarı Əziz Əliyevə Dağıstan xalqının təşəkkür əsəri...




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul edib.

→ 2

## İlham ƏLİYEV: "İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır"






# "Dəmir yumruq" Cənubi Azərbaycana dayaqdır

Azərbaycanın qazandığı tarixi zəfər dünyanın harasında yaşamasından asılı olmayaraq bütün soydaşlarımızın qüruruna çevrilib. Bu qələbəyə sevinən ən çox Cənubi Azərbaycanda yaşayan soydaşlarımız oldu. Savaş günlərində cənublu həmvətənlərimiz ordumuzun qələbə yürüşünü Arazın o biri tayından böyük sevinclə izləyirdilər.

Bu zəfər həm də Cənubi Azərbaycandakı soydaşlarımızın iki yüz ildir tapdanan hüquq və azadlıqları uğrunda mücadiləyə qalxmaları üçün təkan verir, onlarda böyük ruh yüksəkliyi yaradır. Təsadüfi deyil ki, cənubi azərbaycanlılar Prezident, qalib sərkərdə İlham Əliyevi özlərinin ən böyük təəssübkeşi, himayədarı sayır, "Dəmir yumruğ"un fonunda özlərini arxadayaqlı, bütün təhlükələrə sinə gərəcək gücdə hesab edirlər. Bu tükənməz güvən və etibarı isə onlarda dünya azərbaycanlılarının müzəffər lideri İlham Əliyev yaradıb. "Biz öz həyat tərzimizi, dünyəvi inkişafımızı, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır", - deyə İlham Əliyev bildirib.

Prezident İlham Əliyevin cənublu soydaşlarımızın üzləşdikləri problemləri beynəlxalq tribunalardan qaldırması, bu problemlərin Azərbaycanda böyük narahatlığa səbəb olduğunu söyləməsi və İran rejiminin onları üz-üzə qoyduğu bu çətinliklərin aradan qaldırılması istiqamətində səyləri davam etdirəcəyini əminliklə bildirməsi onlara tükənməz inam bəxş edib. İndi cənublu qardaşlarımız fars rejiminin zülmət pərdəsinə bürüdüyü dünyalarını aydınlatmaq üçün haqq mübarizələrini daha böyük əzmlə sürdürürlər.

→ 7

## Prezident Şuşa şəhəri ilə bağlı mühüm sərəncam imzaladı

Sərəncama əsasən Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər həyata keçiriləcək

→ 2




→ 6

## Azərbaycan və Türkiyə prezidentləri "Qardaş yumruğu" təlimində iştirak edən heyəti təbrik ediblər



"Qardaş yumruğu" təliminin "Yüksəksəviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefon zəngi ilə hər iki qardaş ölkənin təlimdə iştirak edən şəxsi heyətlərini təbrik ediblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev şəxsi heyəti təbrik edərək "Qardaş yumruğu" təliminin Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu qeyd edib, birliyimizin sarsılmaz və əbədi olduğunu vurğulayıb.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə "Bir millət, iki dövlət" anlayışı ilə keçirilən təlimin uğurla həyata keçirildiyini bildirib və heç kimin ayıra bilməyəcəyi birliyimizin gələcəkdə də davam etdiriləcəyini diqqətə çatdıraraq bütün şəxsi heyəti təbrik edib.

## Elektron xidmətlər təkmilləşdiriləcək

### Bununla bağlı 47 qanunvericilik aktına dəyişiklik edilir

Deputatlar ölkədə dərman vasitələri ilə bağlı müasir çağırışlar fonunda görüləcək tədbirlərdən söz açıblar, İran media məkanında Azərbaycana qarşı qərəzli fikirlərin yer almasını pisləyiblər, Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunmasına, regionda barış üçün təşəbbüslərə maneələr törədilməsinə etiraz ediblər, bölgədə sülhün və əməkdaşlığın inkişafı üçün Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında əldə olunmuş razılaşmaların müddəalarına əməl olunmasının zəruriliyini vurğulayıblar, həmçinin vətəndaşları və seçiciləri narahat edən məsələlərdən danışıblar.

→ 4

## Mömin qiyafəli, terror mahiyyətli

### İranın bir təxribat ssenarisinə qarşı Azərbaycanın 10 önləyici uğur planı var

Yaxın və Orta Şərqdə mövcud olan bütün münaqişələrdə adı hallanan İranın uzun illərdir ki, terroru dəstəklədiyi bütün dünyaya məlumdur.

Təsadüfi deyil ki, indiyə qədər 6 ölkə - ABŞ, İsrail, Səudiyyə Ərəbistanı, Bəhreyn və Kanada İran İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) və onun qollarını terror qruplaşması kimi tanıyıb. İranda sentyabrdan başlayan və 500-ə yaxın insanın ölümünə səbəb olan etiraz aksiyalarını amansızlıqla yatırmağa cəhd göstərən, mülki əhaliyə qarşı odlu silahdan istifadə edən qüvvələrin əsasını da SEPAH təşkil edir.

→ 7

## Rejimə qarşı etirazlara yüz minlərlə insan çıxır



→ 8

## Pərakəndə pay torpaqları müasir aqroparklara çevrilir

Dünyada geniş yayılan bu təsərrüfat sistemi Azərbaycanda da özünü doğruldur

→ 10

## Kiçik biznes böyük çağırışlara cavab verməlidir

"Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında"qanun layihəsi bu məqsədə xidmət edir

→ 9

## ŞOK...

"Ərəb rüzgarı" dünya çempionunu sovurdu



→ 11

# Xilaskarı Əziz Əliyevə Dağıstan xalqının təşəkkür əsəri...

## Bundan sonra Prezident İlham Əliyevin iş otağında olacaq





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovu qəbul edib.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Dağıstan Respublikası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi və bunun Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini dedi. Dövlətimizin başçısı eyni zamanda bildirdi ki, Azərbaycan-Rusiya əlaqələri 2022-ci ildə də uğurla inkişaf edib. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin və səmərəli görüşlərin əhəmiyyətini vurğuladı, eyni zamanda bu yaxınlarda keçirilən növbəti Azərbaycan-Rusiya Regionlararası Forumunun önəmini qeyd etdi.

Dövlətimizin başçısı əsrlər boyu xalqlarımız arasında tarixi əlaqələrin mövcud olduğunu vurğulayaraq müasir dövrdə də bu münasibətlərin möhkəmləndiyini məmnunluqla diqqətə çatdırdı. Bu baxımdan Prezident İlham Əliyev Sergey Məlikovun ölkəmizə səfərinin Azərbaycanla Dağıstan arasında konkret istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Xalqlarımızın qardaşlıq əlaqələrinin mövcud olduğunu bildirən Sergey Məlikov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını məmnunluqla qeyd etdi. O, ölkəmizə səfəri zamanı keçiriləcək görüşlərin əməkdaşlığın daha da genişlənməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.

Dövlətimizin başçısı Azərbaycan Prezidentinin sərəncamına əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, o cümlədən Azərbaycan və Dağıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında səmərəli fəaliyyətinə görə Dağıstan Respublikasının rəhbərinin müşaviri Maqomed Səidoviç Qurbanova təltif olunduğu "Şöhrət" ordenini təqdim etdi.

Sonra xatirə şəkilləri çəkdirildi.

Daha sonra Azərbaycan Prezidentinə görkəmli dövlət xadimi və ictimai xadim Əziz Əliyevin vaxtilə iş otağında olan heykəltəraşlıq əsəri təqdim edildi.

Qeyd edək ki, Əziz Əliyev 1942-1948-ci illərdə Dağıstana rəhbərliyi dövründə digər Qafqaz xalqları kimi, Dağıstan xalqına qarşı da nəzərdə tutulmuş sürgünün qarşısını almışdı. Buna görə Dağıstan ağsaqqalları adından ona tərkində uşaq olan atlının əks olunduğu heykəltaraşlıq əsəri hədiyyə edilib. Bu əsər bundan sonra Prezident İlham Əliyevin iş otağında olacaq.

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703; Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 553-VIQD nömrəli, 8 iyul tarixli 581-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 99-4.5-ci maddəyə "206.2-206.4," rəqəmlərindən sonra "206-1," rəqəmləri əlavə edilsin.

2. 190-cı maddənin "Qeyd" hissəsinə "205-2.1," rəqəmlərindən sonra "206-1.1," rəqəmləri əlavə edilsin və həmin hissədə "və 193.2.2-ci" sözləri ", 193.2.2 və 206-1.2.2-ci" sözləri ilə, "və 193.3.2-ci" sözləri ", 193.3.2 və 206-1.3-cü" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 206-1-ci maddə əlavə edilsin:

**"Maddə 206-1. Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma**

206-1.1. Bu Məcəllənin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin əlamətləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər xeyli miqdarda törədildikdə -

cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

206-1.2. Eyni əməllər:

206-1.2.1. vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə;

206-1.2.2. külli miqdarda törədildikdə -

cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə edilməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

206-1.3. Bu Məcəllənin 206-1.1-ci və 206-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə -

cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2022-ci il*

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424; 2022, № 5, maddə 452; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 avqust tarixli 1803 nömrəli Fərmanı) 3-cü hissəsinin on altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda on yeddinci abzas əlavə olunsun:

"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə - bu işi başlamış Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 dekabr 2022-ci il*

## Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci il martın 31-də Türkiyə Respublikasının Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdir.

Memarlıq və şəhərsalma sənətinin 270 illik tarixə malik parlaq incisi olan və Azərbaycan xalqı üçün yüksək mədəni-mənəvi dəyər kəsb edən Şuşaya xüsusi ehtiramın təzahürü kimi bu qərar bütün türk dünyasının birlik və həmrəyliyinin yeni rəmzinə çevrilməklə, türk xalqları arasında əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 dekabr 2022-ci il*

## "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 694; 2013, № 5, maddə 458; 2014, № 11, maddə 1346; 2019, № 11, maddə 1684; Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 555-VIQD nömrəli Qanunu) 7.2-ci maddəsinə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin əlaqələndirilməsi Milli Koordinator yanında ictimai əsaslarla fəaliyyət göstərən İşçi Qrup vasitəsilə həyata keçirilir. İşçi Qrupun tərkibi, təşkili və fəaliyyəti qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2022-ci il*

## "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 616-VIQD nömrəli Qanununun tətbiqi və "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 616-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 704; 2013, № 8, maddə 915; 2014, № 11, maddə 1412; 2017, № 3, maddə 353) 2.2-ci bəndinə "Qanunun" sözündən sonra "7.2-ci maddəsinin üçüncü cümləsində," sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 7.2-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun tərkibini, həmçinin həmin İşçi Qrupun təşkili və fəaliyyəti qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 616-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 dekabr 2022-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703; Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 554-VIQD nömrəli, 29 iyun tarixli 573-VIQD nömrəli və 8 iyul tarixli 581-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə "482.1," rəqəmlərindən sonra "482-1," rəqəmləri əlavə edilsin.

2. 479-cu maddənin "Qeyd" hissəsində "və 482.2-ci" sözləri ", 482.2 və 482-1-ci" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 482-1-ci maddə əlavə edilsin:

**"Maddə 482-1. Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma**

Bu Məcəllənin 479 - 482-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanın əlamətləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər az miqdarda törədildikdə -

inzibati xətanın bilavasitə obyekti olan pul vəsaiti məbləğinin qırx faizindən altmış faizinədək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2022-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 620-VIQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 620-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 482-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 620-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 dekabr 2022-ci il*

# Azərbaycanın Baş naziri Dağıstan Respublikasının rəhbəri ilə görüşüb



Dekabrın 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Dağıstan arasında müxtəlif sahələrdə münasibətlərin inkişafından məmnunluq bildirilib, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin perspektivləri müzakirə edilib.

Tərəflər əmin olduqlarını bildiriblər ki, Azərbaycan ilə Dağıstan arasında əməkdaşlıq bundan sonra da qarşılıqlı faydalı Azərbaycan-Rusiya tərəfdaşlığının daha da möhkəmlənməsinə şərait yaradacaq.

# Milli Məclisin deputatları ilə Əhməd Obalı arasında görüş olub



Dekabrın 6-da Sosial Tədqiqatlar Mərkəzində Cənubi Azərbaycanın milli fəalı, "GünazTV"nin qurucusu, siyasi mühacir Əhməd Obalı ilə Milli Məclisin deputatları arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya komitəsinin sədri Ziyafət Əsgərovun moderatorluğu ilə keçirilən görüşdə tərəflər arasında fikir mübadiləsi aparılıb, bir sıra məqamlara toxunulub.

Həyat və fəaliyyətindən danışan Əhməd Obalı İrandakı mövcud rejimə qarşı olan siyasi baxışlarına və fəaliyyətinə görə təzyiqlərə məruz qaldığını, bu səbəbdən ölkəsini tərk etdiyini bildirib. Hər zaman fəaliyyətində güney azərbaycanlıların hüquqlarının müdafiəsi uğrunda mübarizə apardığını diqqətə çatdıran siyasi mühacir Azərbaycanın 44 günlük Vətən müharibəsində zəfərinin onları çox sevindirdiyini və qürurlandırdığını vurğulayb. Bildirib ki, doğma Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi nəinki güney, bütün dünya azərbaycanlılarının milli kimliyini özünə qaytarıb.

Prezident İlham Əliyevin bir fateh olduğunu vurğulayan Ə.Obalı dəstəyə görə Azərbaycan dövlətinə, xalqına təşəkkürünü bildirib və bu dəstəyin davamlı olacağına əminliyini ifadə edib.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Oruc bildirib ki, Azərbaycanın 2020-ci ildə qazandığı zəfərinə münasibət kimin dost, kimin düşmən olduğunu göstərdi. Bəziləri üzdə dost kimi görünsələr də, öz çirkin siyasətlərini ortaya qoydular.

İranda əhalinin molla rejimindən cana gəldiyini qeyd edən Milli Məclisin deputatı xalqa edilən zülmün bir sonu olacağını da qeyd edib.

Görüşdə iştirak edən deputatlar Cavanşir Paşazadə, Ceyhun Məmmədov, Fazil Mustafa və Elşən Musayev İranın ölkəmizə qarşı məkrli mövqeyi, bu ölkədə mövcud molla rejimi ilə bağlı fikirlərini bildiriblər. Qeyd olunub ki, Azərbaycan dövləti öz soydaşlarının taleyi üçün narahatdır.

# Dağıstan Azərbaycanla əlaqələrin daha da inkişaf etdirilməsində maraqlıdır



Milli Məclisin Sədri Sahibə Qafarova dekabrın 6-da ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Qonaqları salamlayan Milli Məclisin Sədri xalqlarımız arasında əsrlər boyu davam edən tarixi əlaqələrin mövcud olduğunu, münasibətlərin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb. O, Azərbaycanla Rusiya Federasiyası arasında münasibətlərin inkişafında dövlət başçılarının rolunu diqqətə çatdıraraq qarşılıqlı səfərlərin də bu münasibətlərə töhfə verdiyini bildirib. Rusiya Federasiyasının subyektləri, o cümlədən Dağıstan Respublikası ilə Azərbaycan arasında uğurlu əməkdaşlıq əlaqələri haqqında danışan Milli Məclisin Sədri bu sahədə parlament əlaqələrinin də özünəməxsus rolunu qeyd edib.

Söhbət zamanı parlamentin spikeri Sahibə Qafarova Rusiya Federasiyası Federasiya Şurası və Dövlət Duması ilə Azərbaycan Respublikası Milli Məclisi arasında mövcud olan ikitərəfli əlaqələr haqqında məlumat verib.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarını işğaldan azad etməsi barədə danışan Milli Məclisin Sədri deyib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması, hazırda Cənubi Qafqaz regionunda tamamilə yeni şəraitin yaranması, Azərbaycanın iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün Ermənistana bir sıra təkliflər irəli sürməsi, həmçinin Ermənistanın regionda sülhün və təhlükəsizliyin təmin olunmasına qarşı törətdiyi təxribatlar haqqında geniş məlumat verib.

Milli Məclisin Sədri işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən böyük quruculuq və bərpa işləri haqqında məlumat verib. O qeyd edib ki, bu ərazilərin yenidən qurulması və Zəngəzur dəhlizinin açılması həm regional kommunikasiyaların bərpasına, həm də bölgənin inkişafına, sülh və təhlükəsizliyin təmin edilməsinə böyük töhfə olacaq.

Səmimi sözlər üçün təşəkkürünü bildirən Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenkonun salamlarını Milli Məclisin Sədrinə çatdırıb.

Qonaq Prezident İlham Əliyevlə bugünkü görüşü zamanı aparılan fikir mübadiləsindən razılığını ifadə edib. O, Azərbaycanın dinamik inkişafından məmnunluğunu qeyd edərək bildirib ki, Dağıstan Azərbaycanla sosial-iqtisadi sahədə əlaqələrin daha da inkişaf etdirilməsində maraqlıdır. O, qanunvericilik orqanlarının bu münasibətlərin inkişafında oynadığı rolu diqqətə çatdırıb.

Sergey Məlikov digər xalqların nümayəndələri ilə yanaşı, azərbaycanlıların da Dağıstanda vahid ailə kimi yaşadıqlarını, azərbaycanlıların Dağıstanın inkişafına töhfəsini qeyd edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, deputatlardan - Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nizami Səfərov, qrupun üzvləri Azər Badamov, Sevil Mikayılova, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və İndoneziya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

Dekabrın 6-da Cakartada Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İndoneziya Respublikası Xarici İşlər Nazirliyi (İR XİN-in Xarici Siyasət Strategiyası Agentliyi) arasında 3-cü ikitərəfli siyasi məsləhətləşmələr - "3-cü Siyasi Planlaşdırma Dialoqu" keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, məsləhətləşmələrdə nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfdən isə İndoneziya Respublikası Xarici İşlər Nazirliyinin Xarici Siyasət Strategiyası Agentliyinin rəhbəri, baş direktor Yayan GH Mulyana rəhbərlik edib.

Siyasi məsləhətləşmələr zamanı ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin hazırkı vəziyyəti, perspektivləri, o cümlədən siyasi, iqtisadi, ticarət, mədəniyyət, təhsil, konsulluq məsələləri və sair istiqamətlər üzrə müzakirələr aparılıb. Habelə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatının (İƏT), ASEAN/AIPA çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə edilib.

Müzakirələr zamanı nazir müavini E.Məmmədov 2022-ci ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30 ilinin tamam olduğunu qeyd edərək bu illər ərzində Azərbaycanla İndoneziya arasında istər ikitərəfli, istərsə də çoxtərəfli əsasda müxtəlif sahələr üzrə əməkdaşlıq gündəliyinin formalaşdığını və münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırıb. O, 44 günlük Vətən müharibəsi də daxil olmaqla İndoneziyanın ölkəmizə verdiyi davamlı dəstəyə görə təşəkkürünü bildirib.

E.Məmmədov qarşı tərəfə postmünaqişə dövründə bölgədə yaranan yeni inkişaflar, işğaldan azad olunmuş Azərbaycan ərazilərində aparılan bərpa və quruculuq işləri haqqında ətraflı məlumat verib. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, Azərbaycanın sülh gündəliyinin irəli aparılması, kommunikasiyaların açılması istiqamətində fəaliyyəti barədə qarşı tərəfi məlumatlandıraraq, eyni zamanda Ermənistan tərəfindən törədilən təxribatların bölgədə sülhün və əmin-amanlığın təmin edilməsinə təhdid yaratdığını diqqətə çatdırıb.

Görüş zamanı tərəflər arasında qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

# Leyla Abdullayeva Parisdəki beynəlxalq tədbirdə erməni tərəfi faktlarla susdurdu

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Parisdəki mənzil qərargahında Avrasiya departamenti tərəfindən təşkil olunan "Avrasiyanın dostları" tədbirində iştirak edib.

AZƏRTAC xəbər verir ki, OECD-nin Baş katibinin müavini Kerri-Ann Jon, eləcə də təşkilatın aidiyyəti bölmələrinin nümayəndələri tədbirdə çıxış edərək COVID-19 pandemiyası və Rusiya-Ukrayna müharibəsinin bütün dünya ölkələrinin iqtisadiyyatına ciddi təsir göstərməsi, gələcək illər üçün iqtisadi inkişafa gözlənilən mənfi təsirlər barədə məlumat veriblər.

OECD-nin Avropa Rəqabətlilik Proqramı ölkələrinin təşkilat yanında akkreditə olunmuş səfirliklərinin nümayəndələri bu böhranın ölkələrin iqtisadiyyatına təsiri barədə tədbir iştirakçılarını məlumatlandırıblar.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva çıxış edərək müharibənin ilk günlərindən etibarən ölkəmiz tərəfindən Ukraynaya göstərilən yardımlardan söz açıb. Deyib ki, Azərbaycan Ukraynaya humanitar yardım göndərən ilk ölkələr sırasında olub. Ukraynada fəaliyyət göstərən "SOCAR Energy Ukraine" şirkətinin humanizm prinsiplərini rəhbər tutaraq, təcili tibbi yardım və yanğınsöndürən xidmətinin avtomobillərini pulsuz yanacaqla təmin etdiyini bildirib.

Diplomat Azərbaycanın uzun illər ərazi bütövlüyünün pozulmasından əziyyət çəkən bir ölkə kimi dövlətlərin ərazi bütövlüyünə dəstək prinsipini hər zaman rəhbər tutduğunu vurğulayıb.

Leyla Abdullayeva hazırkı geosiyasi və geoiqtisadi çətinliklərə baxmayaraq, 2022-ci ilin ikinci yarısında Azərbaycan iqtisadiyyatında müsbət dəyişikliklərin müşahidə olunduğunu qeyd edib. Bu ilin son 6 ayı ərzində iqtisadi artımın qeydə alındığını, qeyri-neft sektorunda 7,8 faiz, nəqliyyat sektorunda 27,2 faiz artımın müşahidə olunduğunu diqqətə çatdırıb.

Həmçinin L.Abdullayeva iclasda Ermənistan tərəfindən səsləndirilmiş tamamilə yanlış və ittiham dolu çıxışa da münasibət bildirərək bölgədəki reallıqlarla bağlı iclas iştirakçılarını məlumatlandırıb. Səfir ölkəmizin ərazilərinin 30 ilə yaxın müddətdə erməni işğalı altında olduğunu, ölkəmizin 2020-ci ilin payızında öz ərazi bütövlüyünü bərpa etdiyini, üçtərəfli Bəyanatın imzalanması ilə münaqişəyə son qoyulduğunu bildirib. Qeyd edib ki, Ermənistan bu Bəyanatla üzərinə götürdüyü öhdəliklərə əməl etmir, erməni nümayəndənin bu iclasda səsləndirdiyi iddialar tamamilə yanlışdır. "Ermənistanın heç bir ərazisi işğal altında deyil. Ancaq Azərbaycanın 8 kəndi hələ də erməni işğalı altındadır. Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra Ermənistanla münasibətlərin normallaşdırılmasının tərəfdarıdır və ümid edir ki, yaxın zamanda rəsmi İrəvan üzərinə götürdüyü öhdəliklərə əməl edəcək, normallaşma istiqamətində müvafiq addımlar atacaq", - deyə diplomat vurğulayıb.

L.Abdullayeva işğaldan azad edilmiş ərazilərdə hazırda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri barədə də məlumat verib.

Qeyd edək ki, tədbirin əsas məqsədi OECD-yə üzv ölkələrin, eləcə də təşkilatın Avrasiya Rəqabətlilik Proqramında iştirak edən tərəfdaş ölkələrin səfirlərini və yüksəksəviyyəli nümayəndələrini bir araya gətirərək regionda və qlobal miqyasda Rusiya-Ukrayna müharibəsinin və COVID-19 pandemiyasının iqtisadi sarsıntılarını idarə etmək siyasətini qiymətləndirmək və müzakirə etmək olub.

Milli Məclisin iclasında

# Elektron xidmətlər təkmilləşdiriləcək

## Bununla bağlı 47 qanunvericilik aktına dəyişiklik edilir





Dekabrın 6-da spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclası açan parlamentin Sədri gündəliyi səsverməyə təqdim edib. Gündəliyin təsdiqindən sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb.

### Deputatlar İran mediasında Azərbaycana qarşı qərəzli fikirlərin yer almasını pisləyiblər

Komitə sədri Zahid Oruc, deputatlardan Rəşad Mahmudov, Ceyhun Məmmədov, Elman Nəsirov, Fazil Mustafa, Əli Məsimli, Fəzail Ağamalı, Anar İsgəndərov, Aqil Abbas, Azay Quliyev, Razi Nurullayev çıxışlarında ölkədə, regionda və dünyada baş verən önəmli hadisələr barədə fikirlərini bildiriblər.

Deputatlar ölkədə dərman vasitələri ilə bağlı müasir çağırışlar fonunda görüləcək tədbirlərdən söz açıblar, İran media məkanında Azərbaycana qarşı qərəzli fikirlərin yer almasını pisləyiblər, Cənubi Qafqazda dayanıqlı sülhün əldə olunmasına, regionda barış üçün təşəbbüslərə maneələr törədilməsinə etiraz ediblər, bölgədə sülhün və əməkdaşlığın inkişafı üçün Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında əldə olunmuş razılaşmaların müddəalarına əməl olunmasının zəruriliyini vurğulayıblar, həmçinin vətəndaşları və seçiciləri narahat edən məsələlərdən danışıblar.

### "Siyasi partiyalar haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib

Sonra parlamentin spikeri Sahibə Qafarova gündəliyin birinci məsələsi olan "Siyasi partiyalar haqqında" qanun layihəsinin ikinci oxunuşu barədə məlumat vermək üçün sözü Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimliyə təqdim edib.

Fəzail İbrahimli qanun layihəsi barədə məlumat verib, sənədin parlamentdə birinci oxunuşda geniş və səmərəli müzakirələrinin keçirilməsindən danışıb, layihənin ikinci oxunuşa hazır olması barədə qısa arayış təqdim edib.

Milli Məclisin spikeri bildirib ki, qanun layihəsinə parlamentin daha iki komitəsində baxılıb və Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini təqdim etmək üçün komitənin sədri Əli Hüseynliyə söz verib.

Komitənin rəyinin müsbət olduğunu bildirən Əli Hüseynli sənədlə bağlı daxil olan təklif və qeydlərin işçi qrupunda nəzərə alınması ilə bağlı məlumat verib.

Sonra İnsan hüquqları komitəsini sədri Zahid Oruc qanun layihəsi ilə bağlı komitənin rəyini təqdim edib, sənədlə bağlı fikirlərini bölüşüb. O bildirib ki, "Siyasi partiyalar haqqında" qanun layihəsinin parlamentdə birinci oxunuşda geniş müzakirələrdən keçməsi, cəmiyyətimizin aparıcı qüvvələri tərəfindən müdafiə olunması onun ictimai və siyasi legitimliyinin əsaslarını möhkəmlətməklə, ölkəmizin gələcək idarəçiliyində vətəndaşların aktiv iştirakına, birləşmək hüququnun təminatına güclü təkan verəcəyini nümayiş etdirir. Parlament rəhbərliyi tərəfindən sənədə milli və dövlətçilik mənafeləri baxımından böyük dəyər verilməsi sayəsində layihənin gerçək fikir azadlığı şəraitində obyektiv qiymətini aldığını qeyd edən komitə sədri onun hüquq sistemimizdə öz layiqli yerini tutacağına, siyasi partiyaların hüquq və qanunlar müstəvisində fəaliyyətinə geniş imkanlar açacağına əminliyini bildirib.

Zahid Oruc layihə əleyhinə çıxış edənlərə və onların səsləndirdikləri fikirlərə tutarlı arqumentlərlə cavab verib.

Sənədin müzakirəsində komitə sədrləri Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlardan Fazil Mustafa, Kamilə Əliyeva, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Sabir Rüstəmxanlı, Kamran Bayramov, Emin Hacıyev, Elşən Musayev, Aydın Hüseynov, Cavid Osmanov, Naqif Həmzəyev, Sahib Alıyev, Etibar Əliyev, Hikmət Məmmədov, Fəzail Ağamalı, Razi Nurullayev çıxış ediblər. Çıxış edənlər qanun layihəsini tarixi zərurət və dövlətçiliyimizin gələcəyi aspektindən yüksək qiymətləndiriblər, layihə ilə bağlı müzakirələrdə və ictimai dinləmələrdə irəli sürülən təkliflərin əsasən nəzərə alınmasını təqdir ediblər. Deputatlar "Siyasi partiyalar haqqında" qanunun qəbulunun islahatların genişləndirilməsinə və siyasi sferada əməkdaşlıq platformasının inkişafına xidmət edəcəyini bildiriblər, sənədlə bağlı qeyd və təkliflərini səsləndiriblər.



Müzakirələrin sonunda 6 fəsil 30 maddədən ibarət qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

### Vətəndaş məmnunluğunun artırılmasına xidmət edən dəyişikliklər

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti 47 məsələsi ölkə Prezidentin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır. Bu qanun layihələri "Açıq hökumət"in təşviqinə dair Milli Fəaliyyət Planına müvafiq olaraq elektron xidmətlərin genişləndirilməsinə və bu əsasda vətəndaş məmnunluğunun artırılmasına yönəlib.

Parlamentin Sədri qeyd edib ki, qanun layihələrinə Milli Məclisin 10 komitəsində baxılıb və bu iclasda komitələrin bütün təqdimatları dinlənildikdən sonra müzakirələrin birgə, səsvermənin isə ayrı-ayrılıqda keçirilməsi qərarlaşdırılıb.

"Dini etiqad azadlığı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə İctimai birliklər və dini qurumlar komitəsinin üzvü Azər Badamov məlumat verərək bildirib ki, dəyişiklik vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına, vətəndaş məmnunluğunun artırılmasına, ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın güclənməsinə xidmət edir və qanun layihəsi ilə bağlı deputatlardan hər hansı bir təklif daxil olmayıb.

Sonra spiker bildirib ki, gündəliyin 3-cü məsələsindən başlayaraq 20-ci məsələ də daxil olmaqla növbəti məsələləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə bu komitənin sədri Tahir Mirkişili ikinci oxunuşda müzakirəyə çıxarılan "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Maliyyə-sənaye qrupları haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunla təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, "Avtomobil yolları haqqında" qanunda, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Banklar haqqında", "Lotereyalar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İpoteka haqqında","Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında","Qiymətli kağızlar bazarı haqqında","Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri barədə məlumatı bir yerdə təqdim edib. Bildirib ki, qanun layihələri Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun hazırlanıb.

Belə ki, Milli Fəaliyyət Planında təsbit olunub ki, dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənəd və ya məlumat vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunsun.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov gündəliyin 21-ci məsələsindən 36-cı məsələsinədək olan qanun layihələrini təqdim edib.

Deputat "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında", "Pasportlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, 1997-ci il 30 dekabr tarixli 421-IQ nömrəli Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında Əsasnamə"də, "Yol hərəkəti haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" qanunlarda, 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunla təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "İnzibati icraat haqqında", "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında", 2007-ci il 10 aprel tarixli 267-IIIQ nömrəli Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsinin verilməsi qaydası haqqında Əsasnamə"də, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, həmçinin Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında ikinci oxunuşda olan qanun layihələrində birinci oxunuşdan sonra hər hansı dəyişikliyin olmadığını bildirib.

Qeyd edib ki, təqdim edilən layihələrdə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın güclənməsinə xidmət edəcək dəyişikliklər təklif olunur.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev gündəliyin 37-ci və 38-ci məsələləri - ikinci oxunuşda olan "Seleksiya nailiyyətləri haqqında" və "Torpaq icarəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təqdim edib. Bildirib ki, hər iki layihə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na əsasən hazırlanıb və sənədlər deputatlar tərəfindən dəstəklənib, heç bir irad və təklif daxil olmayıb.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov 39-cu, 40-cı və 41-ci məsələlər - ikinci oxunuşda müzakirəyə çıxarılan "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişiklik edilməsi barədə, 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunla təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı məlumat verib. Diqqətə çatdırılıb ki, bu qanunlarda da Elektron Hökumətin təşviqi ilə əlaqədar müvafiq dəyişikliklər nəzərdə tutulub. Komitə üzvləri hər üç qanun layihəsini yekdilliklə plenar iclasa tövsiyə ediblər.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Fatma Yıldırım 42-ci məsələ - "Ətraf mühitin mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə əlaqədar komitənin müsbət rəy verdiyini bildirib. Bu qanun layihəsi də vətəndaşlara elektron dövlət xidmətlərinin göstərilməsi işinin təkmilləşdirilməsi və bu zaman onlardan tələb olunan sənədlərin minimuma endirilməsi məqsədilə hazırlanıb.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova gündəliyin 43-cü məsələsini - Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O, sənəddə nəzərdə tutulan dəyişikliklərin uyğunlaşdırma xarakterli olduğunu qeyd edib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev 44-cü məsələ - "Elektron imza və elektron sənəd haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, layihədə təklif olunan dəyişikliklər vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına və vaxt itkisinin azaldılmasına, vətəndaş məmnunluğunun artırılmasına, habelə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın güclənməsinə xidmət edəcək.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov 45-ci məsələ - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. O, birinci oxunuşdan sonra layihə ilə bağlı hər hansı təklifin daxil olmadığını, komitənin sənədin lehinə olduğunu deyib.

Əmək və sosial siyasət komitəsinin üzvü Vüqar Bayramov son üç məsələ - "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Sosial müavinətlər haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Sosial xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələri ilə bağlı məlumatı nəzərə çatdırıb. O, birinci oxunuşdan sonra sənədlərə dair heç bir qeyd və təklifin olmadığını söyləyib.

Müzakirələrin sonunda 47 qanun layihəsi ikinci oxunuşun tələblərinə uyğun olaraq ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Bölgə sakinləri dövlət başçısını böyük sevgi ilə qarşılayırlar

Dövlət başçısının regionlara hər səfəri xalq tərəfindən böyük sevgi, bayram əhvali-ruhiyyəsi ilə qarşılanır. Bölgə sakinləri yaxşı bilirlər ki, Prezident İlham Əliyevin rayonlara səfəri onların sosial-iqtisadi həyatında yeni mərhələnin başlanğıcı, əlavə iş yerlərinin açılması, problemlərinin həlli deməkdir.

Bölgə sakinləri dövlət başçısı ilə birbaşa təmas qurub səmimi söhbətlər edəcəklərini, onları düşündürən məsələlər, ölkəmizdə və dünyada gedən proseslər haqqında birinci şəxsdən məlumat ala biləcəklərinə əmin olduqları üçün belə görüşlərə daha çox maraq göstərirlər. Hər zaman "Azərbaycan bizim ümumi evimizdir, biz bir ailəyik" deyib, vətəndaşlarla birbaşa görüşlərə daha çox üstünlük verən Prezident İlham Əliyev bölgələrə səfərləri zamanı görüş iştirakçılarına qayğı göstərib problemləri ilə maraqlanıb. Elə bunun nəticəsidir ki, prezident-xalq tandemi yaranıb.

Dövlət başçısının dekabrın 2-də Oğuz-Qəbələ rayonlarına səfəri də bölgə sakinlərinin yaddaşına unudulmaz tarixi bir gün kimi yazıldı. Səfər zamanı dövlət başçısı Heydər Əliyev Fondunun təşəbbüsü ilə Oğuz şəhərində inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edərək istifadəyə verilən yeni müəssisədəki şəraitlə tanış oldu. Ərazisi 0,4 hektar, ümumi sahəsi 3013 kvadratmetr olan uşaq bağçasında 32 otaq var. Binada 5 qrup otağı, həkim bölməsi, musiqi zalı, yeməkxana, mətbəx, gimnastika, kompüter, metodist və yardımçı otaqlar yaradılıb. Bina müasir avadanlıqlar, inventar və mebel dəstləri, videomüşahidə, yanğın əleyhinə təhlükəsizlik, mərkəzləşdirilmiş istilik sistemləri ilə təchiz olunub. Həyətyanı sahədə abadlıq və yaşıllaşdırma işləri görülüb, müasir işıqlandırma sistemi yaradılıb və uşaqlar üçün 5 ədəd söhbətgah quraşdırılıb. Prezident İlham Əliyev qrup otaqları, oyun zalı, yeməkxana və həyətyanı sahədə yaradılmış şəraitlə tanış olub. Dövlət başçısı səfər çərçivəsində "Şəki-Oğuz" Aqroparkının torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi üzrə görülmüş işlərlə də maraqlanıb. Oğuzda Daşağıl çayı üzərində "Oğuz-1", "Oğuz-2", "Oğuz-3" kiçik su-elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib.

Məlumat üçün bildirək ki, pilləli üsulla tikilən üç kiçik su-elektrik stansiyasında il ərzində 15 milyon kilovatsaatadək elektrik enerjisinin alınması mümkündür. Əhalisi 44 min nəfər olan Oğuz rayonunun enerji tələbatı 5-6 meqavat təşkil edir ki, mövsümi olaraq onun yarı hissəsini məhz bu elektrik stansiyaları qarşılaya biləcək. Ekoloji cəhətdən daha təmiz və qənaətli enerji istehsal edəcək "Oğuz" kiçik su-elektrik stansiyaları silsiləsinin istismara verilməsi regionda yeni iş yerlərinin açılması ilə yanaşı, "yaşıl enerji" nisbətinin bir qədər də yüksəlməsinə səbəb olacaq.

Hər zaman xalqımızın tarixi, milli-mədəni irsinin qorunub saxlanmasına və gələcək nəsillərə çatdırılmasına önəm verən Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səfər zamanı Şəki şəhərindəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə də tanış olublar.

Dövlət Turizm Agentliyi tərəfindən Qala divarları daxilindəki rəsm qalereyası və qoruğun inzibati binasında aparılan təmir-bərpa işləri yekunlaşıb. Bu abidələrdən XIX əsrdə çar Rusiyası əsgərlərinə məxsus kazarma kimi istifadə edilib. Dövlət başçısı və ailə üzvləri qoruğun iaşə binasındakı XIX əsrdə inşa edilmiş və hazırda dövlət mühafizəsinə götürülmüş tarixi binada gedən bərpa işləri ilə maraqlanıblar. Ənənəvi Şəki memarlığı üslubunda tikilmiş binadan sovet dövründə xəstəxana kimi istifadə edilib. Nəticədə qədim binanın memarlıq irsi tamamilə pozulub, bir sıra əlavələr edilib. Bu memarlıq abidəsi hazırda tarixi memarlıq üslubunda bərpa və konservasiya edilir, daxili tərtibatı iaşə obyekti və tədbirlərin keçirilməsi üçün uyğunlaşdırılır.

Qoruğun yeni inzibati binası ilə tanışlıq zamanı bildirildi ki, buranın yeni inzibati binası dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir və XIX əsrdə əsgər kazarması kimi inşa edilib. İnzibati bina yerli memarlıq üslubunda, dağ-qaya daşından və bişmiş kərpicdən inşa olunub. Binanın memarlıq irsi qorunmaqla onun fasadı, dam örtüyü, döşəməsi, pilləkənləri bərpa olunub, interyeri inzibati bina üçün uyğunlaşdırılıb. Binada kommunikasiya xətləri, istilik sistemi qurulub, inzibati heyətin fəaliyyəti üçün bütün şərait, fond və arxiv otaqları yaradılıb.

Səfər zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva qoruqdakı şəbəkə emalatxanasında da olublar. Şəbəkə emalatxanasının yerləşdiyi bina dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Binaya ümumi sahəsi 127 kvadratmetr olan əsas və 30 kvadratmetr olan yardımçı tikililər daxildir. Hazırda bərpa olunan binadan "Şəbəkə evi" emalatxanası kimi istifadə ediləcək. Yeni konsepsiyaya görə "Şəbəkə evi" emalatxanasında sənətkarların fəaliyyət göstərdiyi şəbəkə istehsalı mərkəzi ilə yanaşı, bu sənətin tarixini nümayiş etdirən ekspozisiya zalı, interaktiv turizm təcrübəsi üçün təqdimat otağı, suvenir istehsalı və satışı mərkəzi yaradılacaq. Eyni zamanda burada yeni şəbəkə ustalarının yetişdirilməsi üçün Şəbəkə Təlim-Tədris Mərkəzi fəaliyyət göstərəcək.

Dövlət başçısı Dövlət Turizm Agentliyi tərəfindən Qala divarları daxilində yerləşən bəzi tarixi binalarda aparılan təmir-bərpa işləri ilə də maraqlanıb. Tarix-Diyarşünaslıq Muzeyində, rəsm qalereyasında da olub, aparılan təmir-bərpa işləri ilə, muzeydə və qalereyada eksponatlarla tanış olub.

Tarix-Memarlıq Qoruğu ilə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki şəhərinin sakinləri ilə söhbət ediblər, xatirə şəkilləri çəkdiriblər.

Söhbət zamanı Şəki rayonunun sakinləri görülən işlərə, diqqətə və qayğıya görə dövlət başçısına və ailə üzvlərinə sevgi və ehtiramlarını nümayiş etdiriblər.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Brüssel ravvinlərinin rəhbəri "Bakı Prosesi"nə görə Azərbaycan Prezidentinə təşəkkür edib

"Tolerantlığı təşviq etmək, müxtəlif dinlərin nümayəndələrini bir araya gətirmək, onları görüşdürmək və bir-birinə tanıtmaq kimi vacib mövzuya həsr edilmiş konfransın təşkilatçılarına təşəkkürümü bildirirəm. Bu gün cəmiyyətdə zorakılığın artmasının özü sual doğurur. Zorakılıq niyə bu qədər artıb? Çünki bir-birini tanımamaq insanı özünə qapılmağa, zorakılığa aparır. Bir-birini tanımamaq cəmiyyətdə zorakılığın artması ilə nəticələnir".

Bu fikirləri Brüssel ravvinlərinin rəhbəri və Avropa İslahatlar Mərkəzinin Avropa İttifaqı institutlarında nümayəndəsi ravvin Albert Gigi "Təhlükəsiz dünya naminə dinlər və mədəniyyətlərarası dialoqun təşviqi" mövzusunda konfransda AZƏRTAC-a müsahibəsində söyləyib.

Bildirilib ki, bu gün cəmiyyətlərimizdəki zorakılıqların səbəbi bir-birimizi tanımamağımızdır. Yəni insanlar bir-birini tanıyanda tərəfdaş olurlar, bir-birilərini anlayır, birlikdə fəaliyyət göstərirlər. Nəticədə zorakılığa yer qalmır. Bu konfrans başqasını tanıtmaq ideyasına xidmət edir. Məhz bu baxımdan bu konfrans çox vacibdir.

"Bu konfransın çox yaxşı tarixi var. Əslində, bu konfrans hələ 2008-ci ildən başlayır. Çünki həmin il Bakı Forumunda dinlər və mədəniyyətlər arasında dialoqun vacibliyi vurğulanıb və Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə "Bakı Prosesi"nin əsası qoyulub. Bu təşəbbüsünə görə Azərbaycan Prezidentinə dərin təşəkkürümü bildirirəm. Çünki mövzunun nə qədər vacib olduğunu görən Prezident İlham Əliyev dinlər və mədəniyyətlərarası dialoqun təməlini qoymaqla insanların görüşməsinə imkan yaradıb. Bir-birini yaxşı tanımağın, birliyin vacibliyini vurğulayıb", - deyə Avropa İttifaqı institutlarında islahatlar üzrə ekspert Albert Gigi diqqətə çatdırıb.

A.Gigi vurğulayıb ki, Azərbaycanda diqqəti çəkən əsas məsələ tolerantlığın sözdə deyil, praktikada olmasıdır. Tolerantlığın əlaməti olan başqasına qarşı açıq olmaq və gündəlik yaşam bu ölkədə həyat tərzidir. Azərbaycandakı gözəl gündəlik həyat bu ölkəyə səfər edən hər kəsi heyran qoyur. Məscidin, sinaqoqun və kilsənin bir-birinin yanında olması, hər dinin inkişafına birlikdə yardım göstərmək, xeyirxah əməllərə xidmət etmək bu ölkənin ən böyük nemətidir.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Dekabrın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Biləsuvar rayonunda vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, Bahar Muradova Biləsuvar rayon Heydər Əliyev Mərkəzində Biləsuvar, Cəlilabad və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib, ərizə, müraciət və təkliflərinə baxıb.

Qəbulda iştirak edən vətəndaşlar əsasən ailə problemləri, məişət zorakılığı, ünvanlı sosial yardım, işlə təmin olunma, sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, təhsildən yayınma və bir sıra digər məsələlərlə bağlı müraciət ediblər. Müraciət edənlərin bəziləri resurs mərkəzinin təlimlərinə cəlb olunacaqlar.

Vətəndaşların Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

# Virtual "dəyirmi masa" keçirilib

Dünya Bankı tərəfindən müxtəlif ölkələrin sosial müdafiə qurumlarının rəhbər şəxslərinin iştirakı ilə "Böhran və bərpa dövründə sosial müdafiə" mövzusunda virtual "dəyirmi masa" keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə nazir müavini Anar Kərimov son illər pandemiya dövründə ölkəmizdə məşğulluğa və sosial rifaha dəstək məqsədilə həyata keçirilmiş genişmiqyaslı tədbirlər paketini diqqətə çatdırıb.

Həmin tədbirlər çərçivəsində iş yerlərinin və əməkhaqlarının qorunması, hökumət tərəfindən maliyyələşdirilən yeni iş yerlərinin yaradılması və həssas qrupların kiçik biznesə çıxışına dəstək verən özünüməşğulluq proqramının genişləndirilməsi, birdəfəlik ödəmə proqramlarının icrası və s. istiqamətlərdə görülmüş işlər qeyd edilib.

Eyni zamanda dövlət sosial xidmətlərinə rahat çıxışı və bu xidmətlərə əlçatanlığı artıran, şəffaflığa təminat verən innovativ və rəqəmsal həllərin tətbiqindən geniş istifadə olunduğu bildirilib, həssas qruplar üçün yeni sosial xidmət mərkəzlərinin yaradıldığı diqqətə çatdırılıb.

Hazırda ölkəmizdə 110 sosial xidmətin elektron qaydada təqdim edildiyi, onların yarısının proaktiv şəkildə həyata keçirildiyi qeyd edilib. Tədbirdə ölkəmizdəki dayanıqlı sosial müdafiə sistemi və bu sahədə hədəflər barədə məlumat verilib.

# Rumıniya mətbuatı Şəki Xan məscidi kompleksində aparılan bərpa işləri barədə məqalə yayıb

Rumıniyanın qabaqcıl "News24hours" nəşri Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olması barədə məlumat yayıb.



AZƏRTAC-a istinadla çıxan məqalədə bildirilib ki, Şəki Xan məscidi kompleksi əsaslı bərpa işlərindən sonra istifadəyə verilib. Tarixi Şəki Xan məscidində bərpa işləri 2021-ci ilin may ayından etibarən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanı nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə tədqiqatların aparılmasına da dəstək göstərib. Qeyd olunub ki, Heydər Əliyev Fondu tərəfindən 2021-ci ildə başlanan bərpa işləri çərçivəsində əvvəl Şəki şəhərinin "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşən Xan məscidi kompleksində 3D ölçmə işləri aparılıb. Bu işlər məscid kompleksinin ilkin görüntüsünün əldə edilməsi baxımından əhəmiyyətli olub. Məscidin ilkin tikintisi zamanı olan pəncərələr və Məhəmmədhüseyn xanın istifadə etdiyi qapı bərpa edilib. Memarların rəyi əsasında yerli memarlıq atributlarından olan şəbəkədən istifadə edilməklə pəncərələrdən ikisinin əvvəlki görüntüsü qaytarılıb. Məlumat verilib ki, məscid kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılıb. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur.

# Jurnalistlər Azərbaycanın xarici siyasətinin gündəmi ilə bağlı maarifləndirilib

Dekabrın 6-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə jurnalistlər üçün "Azərbaycanın xarici siyasət gündəmi" adlı təlim keçirilib.

Təlim Azərbaycanın xarici siyasət gündəmində baş verən son hadisələrin, əməkdaşlıq perspektivlərinin bu sahədə ixtisaslaşmış jurnalistlərə çatdırılması və onların bu xarici siyasətlə bağlı media fəaliyyətlərinə istiqamət verilməsi məqsədini daşıyır.

AZƏRTAC xəbər verir ki, təlimdə 25 media təmsilçisi və təlimçi qismində BMTM-in ixtisaslaşmış ekspertləri iştirak ediblər.

Tədbirdə açılış nitqi ilə çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev hazırda dünyada gedən geosiyasi hadisələrdən, Ukraynadakı müharibədən, son dövrdə İran-Azərbaycan münasibətlərindəki gərginlikdən, postpandemiya dövründə yaranan enerji böhranından danışıb. Bildirib ki, bütün bu hadisələrin Azərbaycana da təsiri olub. Onun sözlərinə görə, 44 günlük müharibədən sonra regionda yeni reallıqlar formalaşıb və Azərbaycanın səsinin, xarici siyasət kursunun beynəlxalq ictimaiyyətə çatdırılmasında jurnalistlər böyük rola malikdirlər. Qeyd edib ki, bugünkü təlimdə bu mövzular üzrə geniş təhlil aparılacaq.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bu kimi təlimlərin mütəmadi olaraq keçiriləcəyini bildirib. O qeyd edib ki, təlimin dünyada və ölkədə baş verən hadisələri, ictimai-siyasi xarakterli prosesləri təhlil edərək cəmiyyətə çatdıran media nümayəndələrinin bu istiqamətdə praktiki bacarıqlarının artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. O, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi və Medianin İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə bu ilin yanvar ayında "Müharibədən sonrakı reallıqlar və media" mövzusunda keçirilən 3 günlük təlimin də Azərbaycan jurnalistlərinin bu istiqamətdə peşəkarlığının artırılması baxımından ciddi praktik addım olduğunu vurğulayaraq deyib: "Vətən müharibəsində qazandığımız Qələbə bütün sahələrdə olduğu kimi media ictimaiyyətinin də işində əsaslı dönüş yaradıb. Qələbənin əldə olunmasında istər ön, istərsə də arxa cəbhədə fədakarlıq göstərmiş hər bir insanın həyat hekayəsini, möhtəşəm zəfərimizə verdiyi töhfəni işıqlandırmaq, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərini, Böyük qayıdışı geniş auditoriyaya çatdırmaq Azərbaycan jurnalistikasının əsas mövzusudur. İndi Azərbaycan mediası öz işini qalib ölkənin və müasir çağırışların tempinə uyğunlaşdırmaq üçün yeni konseptual yanaşma sərgiləməlidir".

Təlimçi qismində BMTM-in ixtisaslaşmış ekspertləri iştirak ediblər. BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərova "Ermənistanla Azərbaycan arasında nizamlama prosesi", BMTM-in şöbə müdiri Cavid Vəliyev "Azərbaycan-Türkiyə əlaqələri" və BMTM-in aparıcı məsləhətçisi Nağı Əhmədov "Orta Asiyada son dinamikalar, Orta dəhliz" mövzusunda təlim keçiblər. Çıxışlarda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə bir sıra görüşlərin keçirildiyi, lakin son görüşün keçirilməsindən imtina olunduğunu, ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində görülən işlər, Azərbaycanla Türkiyə arasında inkişaf edən əlaqələr və son dövrlərdə Orta Asiya ölkələri ilə münasibətlərin genişləndirilməsi istiqamətləri üzrə danışıb, iştirakçıların suallarını cavablandırıblar.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

# Azərbaycan Varşavada keçirilən ənənəvi Beynəlxalq Milad Xeyriyyə Bazarında təmsil olunub

Polşa Respublikasının birinci xanımı Aqata Kornhauser-Dudanın himayəsi altında "Polşada akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin xanımları" cəmiyyətinin (SHOM) təşkilatçılığı ilə Varşavada növbəti ənənəvi Beynəlxalq Milad Xeyriyyə Bazarı keçirilib.

AZƏRTAC xəbər verir ki, xeyriyyə bazarında Polşada akkreditə olunmuş əksər diplomatik nümayəndəliklər, ölkədə fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri və fərdi sahibkarlar iştirak ediblər.

Ölkəmiz xeyriyyə bazarına Azərbaycanın Polşadakı səfirliyinin, Azərbaycanın Polşada akkreditə edilmiş Mərkəzi Avropa Ölkələri üzrə Ticarət nümayəndəsinin ofisinin və Varşavada fəaliyyət göstərən milli mətbəx təamlarını təqdim edən iaşə obyektlərinin birgə iştirakı ilə təmsil olunub.

Azərbaycan stendində ölkəmizdə istehsal olunan müxtəlif növ spirtli və spirtsiz içkilər, suvenirlər, çay və mürəbbə çeşidləri, əl işləri və digər mallar satışa çıxarılıb. Azərbaycanın stendində "Made in Azerbaijan" brendi və Azərbaycan turizm potensialının təbliği ilə bağlı posterlər quraşdırılıb. Milli mətbəxə aid hissədə qonaqlara milli kulinariya nümunələri - dolma, plov, qutab, kükü, habelə ənənəvi Azərbaycan çayı və paxlava təqdim edilib.

Azərbaycan stendi xeyriyyə bazarı ziyarətçilərinin xüsusi marağına səbəb olub. Açılış mərasimindən sonra Polşa Respublikasının birinci xanımı Aqata Kornhauser-Duda Azərbaycanın guşəsini ziyarət edib və orada nümayiş etdirilən nümunələrlə tanış olub.

Xeyriyyə tədbirinin bədii hissəsində Polşada yaşayan azərbaycanlı rəqqasə Kamilla Əliyevanın ifasında "Sarı gəlin" və "Ağ çiçəyim" Azərbaycan milli rəqsləri təqdim olunub.

Səfir Nərgiz Qurbanova tədbir zamanı Polşa Xəbər Agentliyinə (PAP) müsahibə verib.

## “Qardaş yumruğu” düşmənlərə gözdağı verir

# Zəfər əsgərləri Cənubi Azərbaycan sahilində





**Böyük zəfərlə bitən İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanda ordu quruculuğu prosesi daha da modernləşməyə başlayıb. Silahlı Qüvvələrimizin maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində çox mühüm işlər görülür.**

Etiraf etməliyik ki, Vətən müharibəsi ordumuz üçün həm də bir sınaq oldu. İllərlə keçirilən təlimlər, alınan müasir silah-sursatlar, texnikalardan yararlanmaq və ən başlıcası isə, vahid komandanlıq sisteminin uğurlu fəaliyyəti şanlı zəfərimizi şərtləndirdi. Bununla yanaşı, çatışmazlıq da müəyyənləşdirildi və aradan qaldırıldı.

Qalib Ali Baş Komandan İlham Əliyevin göstərişinə əsasən, müxtəlif hərbi təlimlərin keçirilməsi, hərbi hissələrin döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması, ordumuzun müasir silah, hərbi texnika ilə təchiz edilməsi və bir sıra digər tədbirlər Azərbaycanın Ermənistan üzərində qazandığı üstünlüyünün qorunub saxlanmasını təmin edir.

Bu gün ordumuzun beynəlxalq standartlara uyğun daha da gücləndirilməsi, modernləşdirilməsi prioritet olaraq qalır. Bu baxımdan qardaş Türkiyə Respublikası ilə birgə təlimlərin keçirilməsi, hərbi sahədə əməkdaşlığın genişləndirilməsi mühüm strateji əhəmiyyətə malikdir.

2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə silahlı qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi iki ölkənin ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələr arasında təcrübə mübadiləsinin aparılması müxtəlif qoşun növlərinin qarşılıqlı fəaliyyətinə nail olmaq baxımından da böyük əhəmiyyət kəsb edir. Ona görə də iki ölkənin ordusunun iştirakı ilə keçirilən və bütün qoşun növlərini əhatə edən təlimlərin sayı ildən-ilə artmaqdadır.

İki qardaş ölkə arasında bağlanan hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, həm Türkiyədə, həm də ölkəmizdə təlimlər keçirilir. Bunlara misal kimi ötən il iki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə Konya şəhərində keçirilən "TurAz Şahini - 2021", Laçın rayonunda birgə döyüş atışlı taktiki təlimlər və bu ilin sentyabr ayında ölkəmizdə keçirilən "TurAz Qartalı-2022" birgə taktiki-uçuş təlimlərini göstərmək olar.

Dekabrın 5-də isə bu prosesin tərkib hissəsi olan "Qardaş yumruğu" birgə təliminə start verilib. Bu təlim də, əlbəttə ki, Azərbaycanla Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən keçirilir. Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunması ilə keçirilən təlim Bakı şəhərini, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə edir.

Ssenariyə uyğun olaraq, Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələri, Mühəndis Qoşunları, Raket və Artilleriya Qoşunlarının bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə birgə müxtəlif təlim döyüş tapşırıqlarını yerinə yetirirlər.

Təlimdə müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çaylar üzərindən keçid açmaq məqsədilə ponton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar da icra edilir.

Birgə təlimdə əsas diqqət qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsinə, idarəetmənin təkmilləşdirilməsinə, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılmasına yönəldilib.







Dünən "Qardaş yumruğu" birgə təlimində Türkiyənin Hərbi Hava Qüvvələrinin "F-16" təyyarələri öz bacarıqlarını nümayiş etdirərək, verilən tapşırıqları uğurla icra ediblər. Həmçinin Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən gecə və məhdudgörmə şəraitində müxtəlif tapşırıqlar icra edilib. Təlimin bu mərhələsində şərti düşmənlə bilavasitə təmas vəziyyətində onun texnikasının və canlı qüvvəsinin məhv edilməsi tapşırıqları yerinə yetirilib.

Qoşunların qarşılıqlı əlaqədə fəaliyyətləri zamanı döyüş uzlaşmasının təmin edilməsi, idarəetmənin təkmilləşdirilməsi, təcrübə mübadiləsi və şəxsi heyətin peşəkarlığının artırılması məqsədilə keçirilən təlimdə hər iki qardaş ölkənin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirirlər.

Dünən həmçinin təlimlər çərçivəsində "Yüksək səviyyəli müşahidəçi günü" keçirilib. Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və digər qoşun növlərinin komandanları təlimləri izləmək üçün poliqona gəliblər. Ssenariyə uyğun olaraq Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələri, Mühəndis Qoşunları, Raket və Artilleriya Qoşunlarının bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə qarşılıqlı əlaqədə müxtəlif təlim döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirirlər.

General-polkovnik Z.Həsənov və H.Akarın rəhbərlik etdiyi nümayəndə heyəti eyni zamanda Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərində keçirilən təlimdə icra olunan tapşırıqları xüsusi quraşdırılmış monitorlar vasitəsilə canlı izləyiblər.

Sonda bütün istiqamətlər üzrə icra olunan tapşırıqlar videobağlantı vasitəsilə qoşulan komandir heyəti ilə birgə təhlil edilib.

Birgə təlimi yüksək qiymətləndirən müdafiə nazirləri təlimin daha da keyfiyyətli təşkili və şəxsi heyətin peşəkarlıq qabiliyyətinin artırılması ilə bağlı müvafiq tövsiyələrini veriblər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*











## 50 milyon azərbaycanlının liderinin plakatları Cənubi Azərbaycan şəhərlərində qürurla asılır



# "Dəmir yumruq" Cənubi Azərbaycana dayaqdır

## İlham ƏLİYEV: "İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır"




**Azərbaycanın qazandığı tarixi zəfər dünyanın harasında yaşamasından asılı olmayaraq bütün soydaşlarımızın qüruruna çevrilib. Bu qələbəyə sevinən ən çox Cənubi Azərbaycanda yaşayan soydaşlarımız oldu. Savaş günlərində cənublu həmvətənlərimiz ordumuzun qələbə yürüşünü Arazın o biri tayından böyük sevinclə izləyirdilər.**

Bu zəfər həm də Cənubi Azərbaycandakı soydaşlarımızın iki yüz ildir tapdanan hüquq və azadlıqları uğrunda mücadiləyə qalxmaları üçün təkan verir, onlarda böyük ruh yüksəkliyi yaradır. Təsadüfi deyil ki, cənubi azərbaycanlılar Prezident, qalib sərkərdə İlham Əliyevi özlərinin ən böyük təəssübkeşi, himayədarı sayır, "dəmir yumruğ"un fonunda özlərini arxa-dayaqlı, bütün təhlükələrə sinə gərəcək gücdə hesab edirlər. Bu tükənməz güvən və etibarı isə onlarda dünya azərbaycanlılarının müzəffər lideri İlham Əliyev yaradıb. "Biz öz həyat tərzimizi, dünyəvi inkişafımızı, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır", - deyə İlham Əliyev bildirib.

### Azərbaycan biganə qalmayacaq

Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Hazırda İranda molla rejiminə qarşı baş verən etirazlar da ölkəmiz tərəfindən diqqətlə izlənilir. O da gözdən qaçmayan faktdır ki, "islam" respublikasında hər zaman olduğu kimi, hazırkı qarışıq vəziyyətdə də ən çox izlənən, təqiblərə məruz qalan, döyülən, edam olunanlar arasında cənubi azərbaycanlı soydaşlarımız üstünlük təşkil edir.

Amma islam bayrağı altında daldalanan İranın molla rejimi unutmamalıdır ki, Azərbaycan dövləti öz soydaşlarının tapdanan hüquqlarına, boğulan azadlıq səslərinə heç zaman biganə qalmayacaq.

Bu yaxınlarda "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda İlham Əliyev bir daha dünyanın diqqətinə çatdırdı ki, İranda erməni məktəbləri var, ancaq Azərbaycan məktəbləri yoxdur: "Biz heç vaxt heç bir ölkənin daxili işlərinə qarışmırıq. Amma bu, bizimlə eyni etnik mənşəyə, eyni dilə və eyni dəyərlərə sahib olan cəmiyyətin bir hissəsidir. Biz buna axı necə biganə qala bilərik? Niyə məktəblərdə öz dillərini öyrənə bilmirlər? Bilirsiniz, onlar dili itirirlər. Problem ondadır, biz bu məsələni ona görə qaldırırıq ki, İranda azərbaycanlıların danışdığı Azərbaycan dili ədəbi komponentini itirir, məişət dilinə çevrilir. Bu məsələlərə baxılmalı və bu məsələ qaldırılmalıdır, həm də ona görə ki, bu, bizi narahat edir".

Prezident İlham Əliyevin cənublu soydaşlarımızın üzləşdikləri problemləri beynəlxalq tribunalardan qaldırması, bu problemlərin Azərbaycanda böyük narahatlığa səbəb olduğunu söyləməsi və İran rejiminin onları üz-üzə qoyduğu bu çətinliklərin aradan qaldırılması istiqamətində səyləri davam etdirəcəyini əminliklə bildirməsi onlara tükənməz inam bəxş edib. İndi cənublu qardaşlarımız fars rejiminin zülmət pərdəsinə bürüdüyü dünyalarını aydınlatmaq üçün haqq mübarizələrini daha böyük əzmlə sürdürürlər.

Necə deyərlər, 44 günlük müharibədə Arazın bu tayında "dəmir yumruğ"un haqq və ədaləti təmin etməsi Arazın o üzündə də haqq mücadiləsini alovlandırır. Cənublu qardaşlarımız qalxdıqları bu mübarizədə yalnız olmadıqlarını, Azərbaycan kimi qüdrətli və güclü dövlətin, İlham Əliyev kimi müzəffər liderin onların dayağı olduğunu bilirlər.

### İranın ifşa olunmuş cinayətləri

Və həm də bunu tarix boyu Azərbaycana qarşı kin və nifrət güdən, məhz türkofob, islamofob siyasətinə görə erməni ilə "qardaş" olan İran rejimi yaxşı bilir. Buna görədir ki, 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan təcavüzkar Ermənistana hər cür dəstək göstərib.

Özlərini müsəlmanların təəssübkeşi kimi qələmə verən İran rəhbərləri Ermənistandan Xocalı soyqırımının, işğal olunmuş Azərbaycan ərazilərindəki məscidlərin, dini abidələrin yerləyeksan olunmasının, minlərlə müsəlmanın qətlə yetirilməsinin haqq-hesabını heç vaxt tələb etməyib.

30 il müddətində Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarında bütün infrastruktur, mədəniyyət, dini obyektlər, vətəndaşlara və dövlətə məxsus mülklər dağıdılıb, təbii sərvətə ölçüyəgəlməz zərər vurulub. Danılmaz reallıqdır ki, Tehran bu illər ərzində erməni işğalında olan Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirak edib. O da faktdır ki, işğalçı ölkə olan Ermənistan Qarabağda sökdüyü evlərdən əldə olunan tikinti materiallarını İrana satıb. Meşələrin qırılması və onların İrana daşınması da bir başqa bədnam reallıqdır.

Azərbaycanın işğal altında olan əraziləri həm narkotik plantasiyalarının yaradılması, narkotik maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub. Bu ərazilərdən narkotrafik marşrutu kimi istifadə məsələsində İran xüsusi fəallığı ilə seçilib.

Azərbaycanın işğal altındakı torpaqlarında onilliklər boyu İran ifşa olunmuş və təsdiqini tapmış çoxsaylı cinayətlər törədib.

### İran əmmaməsini qarşısına qoyub düşünməlidir…

Bu baxımdan heç də təəccüblü deyil ki, Azərbaycan 44 günlük müharibədə zəfər qazandıqdan sonra İran ölkəmizə qarşı açıq hücuma keçib, təhdid xarakterli əməllər nümayiş etdirir. Yürütdüyü, əslində, yürüdə bilmədiyi, yarıtmaz xarici siyasəti sayəsində bir ölkə kimi dünyada heç bir xüsusi dəyərə malik olmayan, adı yalnız terrorla qoşa çəkilən İran Qarabağın azadlığı ilə qeyri-qanuni fəaliyyətlərindən də məhrum olub.

İran o günə düşüb ki, indi nəfəsliyə ehtiyacı olan Ermənistanı özünün nəfəsliyi hesab edir. Azərbaycanın düşməninin yanında olduğunu təsdiq etmək üçün İranın tələm-tələsik Qafanda konsulluq açması və Ermənistanın Təbrizdə konsulluq açmasının gündəmə gətirilməsinə şərait yaratması isə onun riyakarlığının açıq təzahürüdür.

Saxta islam respublikasının Azərbaycanda terror aktı törətmək istəyi, eləcə də sərhədimizdə hərbi təlimlər keçirməsi isə bədnamlığının bir başqa göstəriciləridir.

İran öz faktiki potensialını düzgün dəyərləndirməli və əmmaməsini qarşısına qoyaraq yaxşı düşünməlidir ki, kiminlə hədə-qorxu, güc dili ilə danışmaq istəyir. Cənubi Qafqazın lider ölkəsi, qalib orduya malik Azərbaycanla hədə və təhdid dilində danışmaq nəinki İrana, heç kimsəyə fayda verməz. Qüdrətli Azərbaycan bütün təxribatlara qarşı layiqincə cavab verməyə və düşmənlərini öz yerində otuzdurmağa qadirdir. Bu günlərdə Azərbaycanın Türkiyə ilə birgə növbəti hərbi təlimlərə başlaması da bunun bariz təcəssümüdür.

### Güclü Azərbaycan bütün məkrli siyasətlərin qarşısında sarsılmaz sipərdir

Eləcə də Azərbaycan fars rejiminə imkan verməyəcək ki, Cənubi Azərbaycandakı soydaşlarımızın haqq və hüquqlarını tapdalasın. İranın molla rejimi məqsədyönlü şəkildə soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi itirmələri yönündə yürütdükləri məkrli siyasətin qarşısında daim Azərbaycan dövlətini görəcək.

Prezident İlham Əliyev də bununla bağlı bildirmişdi ki, ümid edirəm ki, İran hökumətinin ermənipərəst hərəkətləri çox kövrək sülhə xələl gətirməyəcək: "Hesab edirəm ki, azərbaycanlıların hisslərini və bizim maraqlarımızı nəzərə almağın zəruriliyi barədə daha çox anlayış nümayiş olunacaq".

Yer üzündəki azərbaycanlıları, Azərbaycan dövlətini, onun müstəqilliyini hədəf alan düşmənlər "dəmir yumruq" sayəsində yerlərinə otuzdurulacaqlar.

Tolerant ölkə olan, hər zaman sülhü təşviq edən ölkəmiz bütün qonşuları ilə mehriban və dostluq münasibətləri istəyir. Amma bunun əksini gördükdə öz milli mənafeyini təmin etməyi də yaxşı bacarır. Necə ki Azərbaycan Prezidenti İlham Əliyev bunu qətiyyətlə bəyan edib: "Eyni zamanda biz həmişə öz ləyaqətimizi, müstəqilliyimizi, həyat tərzimizi müdafiə edəcəyik və heç bir xarici aktora öz standartlarını və iradəsini hökumətimizə və xalqımıza tətbiq etməyə imkan verməyəcəyik".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Mömin qiyafəli, terror mahiyyətli

## İranın bir təxribat ssenarisinə qarşı Azərbaycanın 10 önləyici uğur planı var



**Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, bölgədə söz sahibi olması, dünyada və Avropanın enerji təhlükəsizliyində mühüm aktora çevrilməsi, türk dövlətlərinin həmrəyliyinə töhfələr verməsi bəzi xarici siyasi mərkəzləri, eləcə də İranı ciddi narahat edir. Mömin qiyafəsinə bürünmüş İran aqressiyasını gizlətməkdə çətinlik çəkir və ifrat riyakarlığını hər addımında büruzə verir. İslam dini adından sui-istifadə edərək ölkəmizə qarşı yeni təxribatlar törətməyə cəhd edən cənub qonşumuz həccə gedən tülkünü xatırladır. Azərbaycan isə dostu düşməndən ayırmağı yaxşı bacarır, xarici siyasətində qarşılıqlı etimad prinsipinə üstünlük verir.**

### Cümə namazından sonra terrora çağırış

İranın ali dini rəhbəri Seyid Əli Xomenei və onun nümayəndələri düşünürlər ki, cümə namazından sonra xütbələr oxumaq özlərini dünyaya müsəlman təəssübkeşi və əxlaq keşikçisi kimi təqdim etmək üçün kifayətdir. Lakin unudurlar ki, onların riyakarlığından və terrorçu xislətindən az qala bütün dünya xəbərdardır. Riyakarlıq İranın təkcə ölkəmizə qarşı deyil, həmçinin cənubi azərbaycanlılara, müxtəlif dövlətlərə münasibətində əsas yer tutur.

Yaxın və Orta Şərqdə mövcud olan bütün münaqişələrdə adı hallanan İranın uzun illərdir ki, terroru dəstəklədiyi bütün dünyaya məlumdur. Təsadüfi deyil ki, indiyə qədər 6 ölkə - ABŞ, İsrail, Səudiyyə Ərəbistanı, Bəhreyn və Kanada İran İslam İnqilabı Keşikçiləri Korpusunu (SEPAH) və onun qollarını terror qruplaşması kimi tanıyıb. İranda sentyabrdan başlayan və 500-ə yaxın insanın ölümünə səbəb olan etiraz aksiyalarını amansızlıqla yatırmağa cəhd göstərən, mülki əhaliyə qarşı odlu silahdan istifadə edən qüvvələrin əsasını da SEPAH təşkil edir.

İran Azərbaycana təzyiq etmək üçün mütəmadi cəhdlər göstərir. Xüsusilə 44 günlük Vətən müharibəsindən sonra ölkəmizi İranın Qüdsü işğal cəhddən qonşu ölkələrlə, eləcə də İranla münasibətlərin inkişafında maraqlı olub. Bunun səbəbi qonşuluq münasibətlərimiz, tarixi əlaqələrimiz, xüsusilə də Cənubi Azərbaycan faktoru və ümumilikdə İranda 40 milyona yaxın azərbaycanlının yaşamasıdır. Bu amilləri nəzərə alan Azərbaycan hər zaman dövlətlərarası münasibətləri pozmamağa, bölgədə əmin-amanlıq yaratmağa çalışır. Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilən bu strategiyanı Prezident İlham Əliyev uğurla davam etdirir. Rəsmi səviyyədə İrana dəfələrlə xəbərdarlıq edilib ki, ölkəmizdə pozuculuq işləri ilə məşğul olmağa, din adı ilə insanları ələ almağa son verməlidirlər".

### Terrorçuluq İranın mənəvi simasıdır

Dövləti dünyada tanıdan, digərlərindən fərqləndirən önəmli faktorlardan biri onun adət və ənənələridir. A.İsabəyli qeyd edir ki, İran saxta etimad qazanmaq yolu ilə müxtəlif dövlətlərə qarşı çıxmağı, terror aktları törətməyi sanki milli ənənəyə çevirib. Bu, bir daha təsdiq edir ki, İranın riyakarlığı ənənəvi xarakter alıb və terrorçuluq onun mənəvi simasını nümayiş etdirir.

"Yəmən, Fələstin, Bəhreyn və Suriya kimi ölkələrdə artıq onilliklərdir lə olan halda onlar baş verənləri heç kimə danışa bilmirlər. İran xüsusi xidmət orqanlarının əməkdaşları fürsətdən istifadə edərək, onları təhdid edir. Həmin insanlara bildirilir ki, Azərbaycanda yaxın günlərdə terror-təxribat hadisələri baş verdikdə sizə də pay düşəcək, ən əsası isə, Xomenei rəhbərliyi sizdən razı qalacaq. Bu hallar artıq xüsusi xidmət orqanlarına da məlumdur".

Müsahibimiz əlavə edib ki, bu gün İran rejimi bir plan qurursa, deməli, Azərbaycanın ən azı on önləyici uğur planı artıq hazırdır: "Yəni Azərbaycan İranın həssas mövzu olan dindən sui-istifadə etdiyini bilir. Ona görə də xüsusi xidmət orqanlarımız belə hallara qarşı ayıq-sayıq mübarizə aparırlar".

### İranı xeyli ölkə terrorçu dövlət kimi tanıyır

İran İslam İnqilabı Keşikçiləri Korpusunun bir neçə qolu məlumdur. Onlardan biri də xeyli dövlət tərəfindən rəsmi şəkildə terror qruplaşması kimi tanınan "Qüds" qoludur. Həmin qruplaşma SEPAH-ın xarici kəşfiyyat bölməsi də adlandırılır. Bu təşkilat guya hüquqları pozulan müsəlmanları müdafiə edir, onların azadlığı uğrunda mübarizəyə qalxır.

"Qüdsün yolu Kərbəladan keçir" şüarı bu qruplaşmanın məkrli planlarının ifadəsidir. Maraqlısı odur ki, artıq həmin şüar dəyişdirilib. Şüarın "Qüdsün yolu Bakıdan keçir" deyə dəyişdirilməsi İranın Azərbaycanda təxribatlar törətmək niyyətini bir daha sübut edir.

Siyasi şərhçi A.İsabəyli bunu belə izah edir: "Əvvəllər İran "Qüdsün yolu Kərbəladan keçir" deməklə nəzərdə tuturdu ki, Qüdsü işğal etmək üçün ilk növbədə imamları əsarət altına almış İraqı ələ keçirmək, sonra Qüdsə yola çıxmaq lazımdır. İndi isə şüarın Azərbaycan əleyhinə dəyişdirilməsi onu göstərir ki, İran Qüdsü işğal etmək üçün artıq Bakını maneə kimi görür. Bu təsdiq edir ki, İran, doğrudan da, bölgədəki geosiyasi reallıqlarla razılaşa bilmir, Azərbaycanın üstünlüyünü həzm etmir və düzgün xarici siyasət yürütmək istəmir".

## Məscid dağıdanları qucaqlayan İran



lərinə maneə kimi görür. Özlərini islam təəssübkeşi adlandıranlar cümə namazı xütbələrini oxuduqdan sonra Azərbaycanla sərhədə qoşun yığır, "diversantları" Qarabağa göndərirlər.

Əlbəttə, bunlar bizi təəccübləndirmir, çünki İran Azərbaycan torpaqları işğalda olduğu vaxtlarda da Ermənistana daim dəstək verib, işğalçıların dini abidələrimizi məhv etməsinə, məscidlərimizi murdarlamasına göz yumub, dolayısı bu prosesin əsas iştirakçılarından olub.

### Azərbaycan bütün riyakar planların qarşısını almağa qadirdir

Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Aslan İsabəyli qeyd edir ki, İran rejimi daim ölkəmizdə daxili sabitliyi pozmaq niyyətindədir: "İranın dini-hərbi dairələri dövlətimizi hədələyirlər. İrandakı fəallar da bildirirlər ki, Tehran rejimi əvvəllər olduğu kimi, yenə də ölkəmizdə terror aktları törətməyə cəhd edə bilər. Əlbəttə, dövlətimiz İranın bütün xain planlarının qarşısını almağa qadirdir. Hansısa terror cəhdi də xüsusi xidmət orqanlarımız tərəfindən qətiyyətlə dəf ediləcək".

Siyasi ekspert vurğulayıb ki, Azərbaycan dövlətinin, şəxsən Prezident İlham Əliyevin xüsusilə son hadisələr fonunda Cənubi Azərbaycanı müdafiə etməsi İranın sözügedən dairələrini təlaşa salıb: "Qorxuya düşən rejim o qədər cahildir ki, çıxış yolunu əməkdaşlıq və əmin-amanlığın bərpası üçün düzgün strategiyada deyil, təxribatlar törətməkdə görür. Azərbaycan isə ta əzəlki, davam edən münaqişələr də bunun sübutudur. Müxtəlif ölkələrdə saxta birlik formalaşdırmaq, "humanitar yardım"larla insanlarda süni etimad yaratmaq İranın adətinə çevrilib. Əgər doğrudan da, İran özünün hesab etdiyi kimi, müsəlmanların müdafiəçisi olsaydı, hansısa şəkildə qarışdığı münaqişələr belə uzun illər çəkməz və dağıntılara, ölümlərə səbəb olmazdı. İslam İnqilabı Keşikçiləri Korpusu bu gün İran rejiminin canlı bombası, əsas dəstəkçisidir. İndi də onlar məhz SEPAH-ın əli ilə ölkəmizdə davamlı təxribat aktları həyata keçirmək istəyirlər. Ancaq onların hamısı ifşa olunub və xüsusi xidmət orqanlarımız tərəfindən zərərsizləşdirilibləR. Yenidən Azərbaycan əleyhinə kampaniyalar işə düşüb. İlk növbədə, ölkəmizdə süni etirazlar yaratmaq niyyətindədirlər", - deyə siyasi şərhçi qeyd edib.

A.İsabəylinin sözlərinə görə, İran məkrli planlarını həyata keçirmək üçün etnik azərbaycanlılardan istifadə etməyə çalışdığına görə diqqətli olmalıyıq: "Uzun illərdir ki, ölkəmizdə şəbəkə yaratmaq istəyən İran hamıya məlumdur ki, bəzi vətəndaşlarımızı maliyyələşdirir və öz xeyrinə istifadə edir. Bu kimi hallar dəfələrlə hüquq-mühafizə orqanları tərəfindən ifşa olunub. Yeni qurduqları şəbəkədə isə gənclərlə din adı altında iş aparmağa çalışırlar. Onlar süni etimad yaratdıqları gəncləri pulla şirnikləndirir və gizli toplantıları onların evlərində keçirirlər. Sonradan həmin gənclər evində keçirilən iclasın əslində dinlə əlaqəsinin olmadığını, birbaşa İranın riyakarlığına xidmət etdiyini öyrənəndə isə qorxuya düşürlər. Be-

A.İsabəyli cənub qonşumuzun xarici siyasətində yol verdiyi digər yanlış məqama da diqqət çəkib: "İranda belə bir yanaşma mövcuddur: İran dövlətlərin daxili işinə qarışmır, amma zənginlər tərəfindən məzlumların, yəni zəif və kasıb müsəlmanların haqları pozularsa, müdaxilə haqqını özündə daşıyır. Bu, İranın özünü inkar etməsi deməkdir. Necə olur ki, özünü "dünya müsəlmanlarının təəssübkeşi" kimi qələmə verən İran rəhbərləri müxtəlif ölkələrdə minlərlə müsəlmanın öldürülməsinə göz yumur, hətta buna şərait yaradır?! Bu işdə İran rəhbərliyinin əsas güvəndiyi SEPAH-dır. Təsadüfi deyil ki, SEPAH hətta İranın Müdafiə Nazirliyindən belə böyük səlahiyyətlərə sahibdir".

Dövlətimizə qarşı məkrli planlar quran, terror-təxribatlar törətməyə cəhd edən bütün qüvvələr başa düşməlidirlər ki, Azərbaycan "tülkü həccə gedir" hekayələrinə artıq inanmır. 44 günlük Vətən müharibəsi də göstərdi ki, milli həmrəyliyimizi heç kim poza bilməz. Ölkəmizdə İran rejiminə xidmət edən terrorçuların zərərsizləşdirilməsi də sübut edir ki, Azərbaycan müsəlman qiyafəli, terror xislətli tülkülərin şikarına çevrilmir. İranın ölkəmizdə dini və milli düşmənçiliyi təbliğ edərək gərginlik yaratması isə mümkünsüzdür.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# Riyakar siyasət, sistemli təxribatlar, antiazərbaycançı mövqe və islami dəyərlərə hörmətsizlik - İranın əsl mahiyyəti

## İranda rejimə qarşı etirazlara yüz minlərlə insan çıxır

### Polis zorakılığı gücləndikcə, əhalinin müqaviməti də artır

Sentyabrın 13-də Tehranda 22 yaşlı Məhsa Əmini geyim qaydalarını pozduğuna görə əxlaq polisi tərəfindən fiziki təzyiqlərə məruz qaldığı üçün xəstəxanaya yatırıldı.

Ağır xəsarətlər nəticəsində Əmini 3 gün sonra xəstəxanada vəfat etdi. Sentyabrın 17-də isə onun Saqqız şəhərində dəfnindən sonra İranda kütləvi etirazlar başladı və nümayişlər qısa müddətdə bütün ölkəyə yayıldı. Tehran, Təbriz, İsfahan, Şiraz, Kirman və digər böyük şəhərlərdə bu gün də kütləvi hal alan aksiyalarda qadınlar üstünlük təşkil edir. Əsas tələb isə vətəndaşlara azadlıq hüququnun verilməsi və məcburi hicab tələbinin ləğv olunmasıdır.

3 aya yaxındır davam edən aksiyalarda 400-dən çox şəxsin öldüyü qeyd olunur, amma dəqiq say barədə məlumat yoxdur. Eyni zamanda etirazlarda iştirak edənlərin saxlanılması ilə bağlı da İran hökuməti tərəfindən dəqiq rəqəmlər, onların kimliyi barədə açıqlama verilmir. İran İnsan Haqları Təşkilatının dekabrın 4-də yaydığı məlumatda sentyabrın 17-dən dekabrın 4-ü axşam saatlarına kimi ölkədə davam edən etiraz nümayişlərində 585-i tələbə olmaqla, 18000-dən çox şəxsin həbs edildiyi bildirilir. Ümumilikdə, ölkə rəsmiləri aksiyalarda ölənlərin və saxlanılanların sayını açıqlamaqdan imtina edirlər. Ölənlər arasında İran azərbaycanlılarının da olduğu qeyd olunur.

Etirazların ilk mərhələsində əsas məsələ hicab azadlığı olsa da, nümayişçiləri daha çox maraqlandıran rejimin dəyişikliyinə nail olmaqdır.











### Əxlaq polisi ləğv edilirmi?

Bütün ölkəni bürüyən nümayişlərin bitmədiyini görən hökumət deyəsən geri çəkilərək müəyyən addım atmaq qərarına gəlib. Belə ki, İranın baş prokuroru Məhəmməd Cəfər Montazeri keçirilən dini konfransda ölkədə islami geyim qaydalarının necə yerinə yetirildiyinə nəzarət edən əxlaq polisinin ləğv ediləcəyini açıqlayıb. "Əxlaq polisinin məhkəmə sistemi ilə heç bir əlaqəsi yoxdur və harada açılıbsa, orada da bağlanıb" deyən baş prokuror həmçinin bildirib ki, parlamentdə qadınların hicab taxmasını tələb edən qanuna da baxılacaq.

Bir çox ekspert isə bunların ölkə rəsmiləri tərəfindən iğtişaşları yatırmaq üçün verilən boş vədlər olduğunu bildirir. Eyni zamanda bir çox iranlı etirazçı qadın da hökumətin əxlaq polisini ləğv etmək qərarına gəlməsi ilə bu nümayişlərin sona çatmayacağını qeyd edib.

Onlar deyirlər ki, bu hakimiyyətlə İranın gələcəyi yoxdur. "Biz etirazçıları artıq hicab maraqlandırmır. Son 70 gündür ki, biz etirazlara hicabsız çıxırıq. Əlimizdə olan yeganə şey inqilabdır. Hicab onun başlanğıcı idi və indi biz diktatora ölümdən və rejim dəyişikliyindən başqa heç nə istəmirik", - deyə bildirirlər.

ABŞ dövlət katibi Antoni Blinken də İranda əxlaq polisinin ləğvinin müsbət addım ola biləcəyini bildirib və bu etirazlara rəhbərlik edən iranlı gənclərin, xüsusilə də qadınların fövqəladə cəsarətini alqışlayıb. Onun sözlərinə görə, əgər rejim məlum etirazlara hansısa formada cavab veribsə, bu, müsbət haldır.

### Cənubi Azərbaycandakı soydaşlarımıza dəstək

İranda 40 milyona yaxın azərbaycanlı yaşasa da, bu illər ərzində onların hüquqları tamamilə pozulub. Belə ki, dəfələrlə müxtəlif platformalarda Azərbaycan məktəblərinin açılması məsələsi gündəmə gətirilsə də, indiyədək bu istiqamətdə heç bir addım atılmayıb. Azərbaycan dili ilə bağlı da soydaşlarımızın hüquqları qorunmayıb.

Prezident İlham Əliyev də çıxışında bu məsələyə toxunaraq qeyd etmişdi: "...İranda erməni məktəbləri var, ancaq Azərbaycan məktəbləri yoxdur. Bu necə ola bilər? Kimsə desə ki, bu, başqasının işlərinə qarışmaqdır, biz bunu qəti şəkildə rədd edirik. Bu, başqasının işlərinə qarışmaq demək deyil. Azərbaycanın xarici siyasəti çox aydındır. Biz heç vaxt heç bir ölkənin daxili işlərinə qarışmırıq. Amma bu, bizimlə eyni etnik mənşəyə, eyni dilə və eyni dəyərlərə sahib olan cəmiyyətin bir hissəsidir. Biz buna axı necə biganə qala bilərik? Niyə məktəblərdə öz dillərini öyrənə bilmirlər? Bilirsiniz, onlar dili itirirlər. Problem ondadır, biz bu məsələni ona görə qaldırırıq ki, İranda azərbaycanlıların danışdığı Azərbaycan dili ədəbi komponentini itirir, məişət dilinə çevrilir. Bu məsələlərə baxılmalı və bu məsələ qaldırılmalıdır, həm də ona görə ki, bu, bizi narahat edir".

Təbii ki, Cənubi Azərbaycanda soydaşlarımızın ana dili hüququnun pozulması narahatlıq yaradan məsələdir. Elə bu kimi səbəblərdəndir ki, üç aya yaxındır səngimək bilməyən etiraz aksiyaları orada yaşayan azərbaycanlıların təhlükəsizliyi, hüquq və azadlıqlarının qorunması məsələsini də aktuallaşdırıb. Etirazlar fonunda Prezident İlham Əliyevin portretlərinin və fikirlərinin yer aldığı plakatlar Güney Azərbaycanın bütün şəhərlərində kütləvi şəkildə nümayiş etdirilib. Plakatlarda "Qarabağ fatehi", "Böyük Azərbaycanın fatehi", "And olsun Azərbaycana!", "Güney Azərbaycan sizinlədir, cənab Prezident!" kimi şüarlar əksini tapıb.

Prezident İlham Əliyev bildirib ki, öz həyat tərzimizi, dünyəvi inkişafımızı, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır.

### Sonu bilinməyən etirazlar

İran hakimiyyəti etiraz aksiyalarına görə ilk günlərdən "xarici qüvvələri" günahlandırsa da, 3 aydır ki, qarşısını ala bilmədiyi nümayişlərin əsas səbəbi vətəndaşların hüquq və azadlıqlarını açıq şəkildə pozan rejimin özüdür.

Uzun illər ərzində haqları tapdanan insanlar artıq molla rejiminə yox deyərək, azad və rahat yaşamaq istəyir, qadınların haqsız yerə fiziki təzyiqlərə məruz qalmasını, öldürülməsini rədd edir. Hökumət etirazların qarşısının sərt alınacağını bildirsə də, buna nail olmadı. Dövlət rəsmilərinin əvvəllər çox çəkməyəcəyini düşündüyü kütləvi nümayişlərin nə zaman bitəcəyi isə hələ məlum deyil.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## İran beynəlxalq terrora fəal dəstək verir

### Qarabağdakı separatçılığı və terroru da Tehran himayə edirdi

Tehranın qeyri-adekvat pozucu hərəkətləri, bəzi yüksək vəzifəli şəxslərin dostluqdan xeyli uzaq olan və əslində, daha çox düşmənçiliyə bənzəyən siyasi ritorikası son vaxtlar ölkələrimiz arasında gərginlik dərəcəsini artırıb.

İran hökumətinin rəsmi qəzeti olan "Iran Newspaper" növbəti dəfə təxribat xarakterli yazı ilə çıxış edərək, Azərbaycanı "Bakı Respublikası" adlandırıb. Xatırladaq ki, bu, həmin nəşrin Azərbaycan xalqının haqlı narazılığına səbəb olan ilk yazısı deyil. Belə ki, bir neçə il öncə qəzetdə Azərbaycan dilini ələ salan karikatura İran şəhərlərində kütləvi nümayişlərə səbəb olmuşdu.

Dekabrın 5-də Prezident İlham Əliyevin İrana yönəli ittihamlarına "cavab" vermək istəyən iranlı diplomat Möhsün Pakayin belə bir iddia ilə çıxış edib: "Azərbaycanın on milyonluq əhalisi İrana aiddir və öz vətənindən zorla ayrılıblar. İndi belə tarixi iddialar irəli sürülsə, İranın deyəcək çox şeyi olacaq".

Keçmiş səfir daha sonra erməni qardaşlarının "təəssübkeşliyini çəkir" və onu çox "qayğılandıran" Ermənistanın təhlükəsizliyi ilə bağlı cəfəng fikirlərini dilə gətirir: "Azərbaycan Türkiyə və Pakistanla birlikdə Naxçıvanda Ermənistanın ərazi bütövlüyünə qarşı təlim keçirmədimi? Bu təlim İran silahlı qüvvələrinin keçirdiyi "Xeybərin Fəthi"ndən əvvəl olub. İranın təlimi region ölkələrinin ərazi bütövlüyünü dəstəkləmək məqsədilə keçirilib, Azərbaycan isə Ermənistanın ərazi bütövlüyünü pozub". Əvvəla, Azərbaycan nə vaxtdan Ermənistanın ərazi bütövlüyünü pozub? Ermənilərin vəkili rolunda çıxış edən Pakayin və onun başbilənləri Azərbaycan torpaqlarının az qala 30 il davam edən işğalı zamanı görəsən niyə təlimlər keçirməyib? Məgər onlar həmin dövrdə yad planetdə yaşayıblar və xalqımızın işğaldan çəkdiyi iztirablarının şahidi olmayıblar?

Tehran sentyabr ayında Azərbaycan sərhədində keçirilən təlimlərlə hərbi gücünü nümayiş etdirib. Bir müddət əvvəl isə Azərbaycan İranın nəzarətində olan gizli silahlı birləşmənin ifşa olunduğunu bildirib.

DTX-nın məlumatına görə, 19 nəfərdən ibarət qrup üzvlərindən dünyəvi dövlət ideyalarına qarşı dini-ekstremist materiallar götürülüb. Bu günlərdə isə Qarabağ iqtisadi rayonunda müvəqqəti dislokasiya olunmuş Rusiya sülhməramlıları 14 nəfər əcnəbinin Azərbaycan ərazisinə keçidini təmin ediblər. Məlumata görə, İran vətəndaşları olduqları bildirilən diversantlar noyabrın 24-də sülhməramlıların postunu rahat şəkildə keçərək Xankəndiyə gəliblər və hazırda da oradadırlar. İranlıların adları da artıq məlumdur.

Bildirilir ki, 14 nəfərdən 12-si İranın eyni bölgəsindən - ölkənin cənub-qərbindəki İze şəhərindən gəlib. İzenin də daxil olduğu Xuzistan bölgəsinin əhalisinin əksəriyyətini ermənilər təşkil edir və erməni dili burada danışılan əsas dillərdən biridir. Bəzi məlumatlara görə, bu şəhərdə İran xüsusi xidmət orqanlarının terror təxribatları üzrə ixtisaslaşmış gizli bazası yerləşir.

Mövcud məlumata görə, iranlılar Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə özlərini çox rahat hiss edən quldurlar üçün təxribat və terror təlimləri keçirmək, həmçinin konkret diversiyalar hazırlamaq üçün göndəriliblər. Bundan əlavə, onların Qarabağda qalan qruplara İran istehsalı olan sursatlardan istifadə etmək üçün təlim keçə biləcəkləri də bildirilir.

Eyni zamanda bu anti-Azərbaycan hərəkətlərilə Rusiya sülhməramlıları bir daha göstərdilər ki, onlar, əslində, müvəqqəti olaraq "nəzarət etdikləri" əraziyə, ümumiyyətlə, nəzarət etmirlər. Onların komandanı general-mayor Andrey Volkov bildirib ki, ölkəmizə qanunsuz yolla daxil olan iranlılar guya inşaatçılar imiş və iki gündən sonra geri qayıdıblar. Maraqlıdır, görəsən kütləvi işsizlikdən əziyyət çəkən ermənilər niyə İrandan fəhlə qüvvəsi sifariş edir və həmin "inşaatçılar" iki günə Xankəndidə nəyi tikib-qurmağa macal tapıblar?

Tehran nə ermənilərin ASALA terrorçu qruplaşması ilə işbirliyinə, nə də digər ittihamlara münasibət bildirir. Lakin mediada tez-tez yerli azərbaycanlı fəalların həbsi və Cənubi Azərbaycanda separatçılığa təşviqdən söz açır.

BBC farscanın əməkdaşı Həmid Keyhaniyə görə, İran iqtisadi cəhətdən kiçik ölkələrə təsir edə bilər, amma Azərbaycana deyil, bunun üçün kifayət edən resurs və iradə yoxdur, çünki çoxlu daxili problemlər var.

Bu yerdə ABŞ Dövlət Departamentinin bir müddət əvvəl dərc olumuş hesabatı yada düşür. Sənəddə bildirilir ki, normal dövlətlər səfirliklərə və sülh dövründə hərbi obyektlərə hücum etmir, terrorçuların və silahlı qrupların tərəfdaşlarını dəstəkləmir, terrorçulara təhlükəsiz sığınacaq vermir, hansısa ölkəni məhv etməyə çağırmır və başqa dövlətləri təhdid etmir.

Normal dövlətlər öz silahlı qüvvələrinin sıralarında terrorçu yetişdirmirlər, amma İran rejimi bunu İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) və "Qüds" xüsusi təyinatlıları ilə bağlı həyata keçirir. Normal halda ticarətdən terrora dəstək və terrorizmi maliyyələşdirmək üçün istifadə edilmir. Normal dövlətlər qanuni etirazları güc yolu ilə yatırmır, öz vətəndaşlarını və əcnəbiləri qondarma ittihamlarla həbsxanaya salmır, onlara işgəncə vermir və əsas azadlıqlara sərt məhdudiyyətlər tətbiq etmir. Hansı ki İran bunu edir.

Yeri gəlmişkən, dekabrın 4-də İranda daha 4 nəfərin edam olunduğu bildirilir.

Bu ölkədə vətəndaşlar mütəmadi olaraq haqsız təqibə məruz qalır və işgəncə yolu ilə əldə edilənlər çox vaxt onların günahının yeganə sübutudur.

Bunları bilmək və unutmamaq lazımdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## İran təxribatçı hərəkətlərindən əl çəkmir

### Tehran Qarabağın ərazisini yenidən terror məkanına çevirmək istəyir

Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən sonra regionda yaranmış yeni tarixi reallıq və böyük fürsətlər fonunda qonşu İranın ölkəmizə münasibətdə qeyri-adekvat davranışları yalnız təəssüf doğurur.

Bu günlərdə 14 nəfər İran vətəndaşının Xankəndiyə göndərilməsi və Qarabağda müvəqqəti məskunlaşmış Rusiya sülhməramlılarının mandatlarına zidd olaraq onların Azərbaycan ərazisinə keçidini təmin etməsi də buna bir nümunədir.

Bu şəxslərin Xankəndidəki terrorçu dəstələrlə əlaqəsi, onlara təlimlər keçmək, yeni diversiyalar hazırlamaqda kömək məqsədilə bura göndərildikləri şübhə doğurmur. Bu, Azərbaycanın qələbəsini, ölkəmizin öz dövlət sərhədləri üzərində nəzarəti təmin etməsini hələ də qəbul edə bilməyən İran hakimiyyətinin iradəsi əsasında atılmış pozucu addımdır. Bütün bunlar belə düşünməyə əsas yaradır ki, rəsmi Tehran regionda nüfuzunu itirməkdən narahatlıq keçirərək hazırda rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan ərazini terror məkanına çevirmək planı üzərində işləyir. İran tərəfi gizli yolla Azərbaycan ərazisinə daxil olmuş bu 14 nəfərin məqsədinə, missiyasına aydınlıq gətirməli, bölgədə belə çirkin oyunlara son qoymalıdır.

İndi Azərbaycan və strateji müttəfiqimiz olan Türkiyə regionda məhz sülhə çalışır. Ölkəmizin ərazi bütövlüyü, dövlət sərhədlərimizin bərpası, Zəngəzur dəhlizinin açılması perspektivi, həm Azərbaycanın, həm də Türkiyənin bununla bağlı ortaya qoyduğu qətiyyətli mövqe qlobal kommunikasiyalar üçün geniş imkanlar formalaşdırıb. Bu fürsətlərdən daha effektiv faydaların əldə edilməsi məqsədilə Azərbaycan bütün region ölkələrinin mövcud imkanlardan birgə istifadə etməsini istəyir. Hər kəsi bu məsələlərdə əməkdaşlığa, müştərək hərəkətə çağırır. Ölkəmizin niyyəti əvvəldən aydındır: Azərbaycan regionda əbədi sülh, təhlükəsizlik, davamlı inkişaf, insanların yüksək rifahı arzusundadır. Bütün bunlar isə region ölkələrinin fürsətləri birgə dəyərləndirməsi, sıx əməkdaşlığı əsasında mümkün ola bilər.

Rusiya və Ukrayna arasında davam edən müharibə, qlobal kommunikasiyalarda yaranmış problemlər Azərbaycanın təklif etdiyi yeni kommunikasiya layihələrinin önəmini daha da artırır. Əslində, uzun illərdən bəri təcrid vəziyyətində yaşayan, beynəlxalq sanksiyalarla üzləşən İran özü regional kommunikasiya layihələrində maraqlı olmalıdır. Ona görə ki, bu layihələr heç bir region dövlətinə qarşı deyil, əksinə, hamının xeyrinədir. Ümumiyyətlə, Azərbaycan iştirak etdiyi bütün beynəlxalq layihələrdə, irəli sürdüyü qlobal təşəbbüslərdə ölkəmizin milli maraqları ilə yanaşı, qonşu ölkələrin mövqeyini də nəzərə alır. Qonşuluq münasibətlərinə xələl gətirən, başqalarının maraqlarına toxuna biləcək hər hansı qeyri-korrekt davranışları özünə rəva görmür. Çünki Azərbaycan xalqının, dövlətinin milli maraqlarına daxil ən mühüm məsələlərdən biri də sülh, regional təhlükəsizlikdir ki, bu da qonşularla mehriban münasibətlərdən, mümkün qədər balanslaşdırılmış siyasət kursundan, qarşılıqlı inam və səmimiyyətdən asılıdır.

Azərbaycan dövləti bütün ölkələrlə münasibətlərində, beynəlxalq təşkilatlardakı fəaliyyətində olduğu kimi, qonşularla əlaqələrində də səmimidir, verdiyi sözlərə, ümumi prinsiplərə sadiqdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin tarixi qələbəsi ilə regionda yaratdığı yeni reallıqlardan birgə istifadə fürsətlərinə də belə yanaşır: "Beləliklə, əgər biz bütün iştirakçılarla səmimi əməkdaşlıq və qarşılıqlı faydalı yanaşma platforması qurmağa nail olsaq, bu, işə yarayacaq. Əgər olmasa, ola bilsin ki, bu, qismən işləyəcək. Beləliklə, bu, əlbəttə ki, bizim tərəfdaşlarımızla qarşılıqlı əlaqələrimizdən asılı olacaq. Lakin yenə də Azərbaycan bu layihənin coğrafi mərkəzi olaraq və artıq qeyd etdiyim kimi, tam infrastruktura malik ölkə və müxtəlif beynəlxalq iştirakçılarla yaxşı əlaqələri olan ölkə olaraq bu məsuliyyəti başa düşür. Biz bu layihəni irəli aparmaq üçün əlimizdən gələni edəcəyik".

Dövlət rəhbərimiz hesab edir ki, Azərbaycanla Ermənistan arasında uzun müddətdir davam edən qarşıdurmanın sona çatmasına hamı məmnun olmalıdır. Bu, regional sabitliyin və potensial əməkdaşlığın təmin olunması deməkdir. Region ölkələrindən biri kimi İranın buna sevinməməsinin, əksinə, Azərbaycanın ərazi bütövlüyünün bərpasından naraharlıq keçirərək bizimlə sərt dildə danışmağa başlamasının geosiyasi səbəbləri aydın deyil.

Rəsmi Tehran Azərbaycan Prezidentinin timsalında Azərbaycan xalqının ifadə etdiyi bu suallara cavab tapmalı, ortaya qoyulan qətiyyətli mövqedən nəticə çıxarmalıdır. "Biz də onlardan qorxmadığımızı nümayiş etdirmək üçün İran sərhədində hərbi təlimlər təşkil etməli olduq. Biz onlara deyirik ki, onlardan qorxmuruq. Biz öz həyat tərzimizi, dünyəvi inkişafımızı, Azərbaycanın və azərbaycanlıların, o cümlədən İrandakı azərbaycanlıların müdafiəsini təmin etmək üçün hər şeyi edəcəyik. Onlar bizim millətin bir parçasıdır".

Alimlər yazırlar ki, İranda erməni azlığı orta əsrlərdən mövcuddur. Ölkədə onlarca kilsə, məktəb və digər erməni müəssisələri vardır. Bir sıra universitetlərdə erməni dili fakültələri fəaliyyət göstərir. Tehrandakı "Ararat" klubu hər zaman bir təxribat mərkəzi olmuşdur. Erməni dilində onlarca mətbuat orqanı yayımlanır.

Bu ölkədəki az sayda erməni üçün məktəblər açan, amma milyonlarla soydaşımızın öz ana dilində təhsil almasına imkan verməyən İran bilməlidir ki, Azərbaycan bu ölkədəki soydaşlarımızın problemlərinə biganə qalmayacaq. Bu, başqa ölkələrin daxili işlərinə qarışmaq deyil, öz xarici siyasət kursu etibarilə Azərbaycan heç zaman başqa ölkələrin daxili işlərinə müdaxilə etməyi özünə rəva görmür. Bununla belə, İranda yaşayan soydaşlarımızın məsələsi, bizimlə eyni etnik mənşəyə, dilə, dəyərlərə sahib cəmiyyətin problemlərini dilə gətirmək, bu problemlərin həllinə çalışmaq başqa bir ölkənin daxili işlərinə qarışmaq deyil. "Biz buna axı necə biganə qala bilərik? Niyə məktəblərdə öz dillərini öyrənə bilmirlər? Bilirsiniz, onlar dili itirirlər. Problem ondadır, biz bu məsələni ona görə qaldırırıq ki, İranda azərbaycanlıların danışdığı Azərbaycan dili ədəbi komponentini itirir, məişət dilinə çevrilir. Bu məsələlərə baxılmalı və bu məsələ qaldırılmalıdır, həm də ona görə ki, bu, bizi narahat edir", - deyə Azərbaycan Prezidenti bildirir.

Regionda sülh üçün İran ermənipərəst hərəkətlərindən əl çəkməli, fitnə-fəsadları kənara qoymalı, Azərbaycanın bütün qonşularla sülh və dostluq münasibətləri qurmaq istəyinə hörmətlə yanaşmalıdır. Eyni zamanda heç vaxt unutmamalıdır ki, Azərbaycan hər zaman öz ləyaqətini, müstəqilliyini, həyat tərzini müdafiə edəcək və heç bir xarici aktora burada öz standartlarını tətbiq etməyə imkan verməyəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Kiçik biznes böyük çağırışlara cavab verməlidir

## "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" qanun layihəsi bu məqsədə xidmət edir

"Dama-dama göl olar" deyiblər. Bu baxımdan hər kiçik sahibkarın ölkəmizin iqtisadiyyatının inkişafına verdiyi töhfənin öz yeri, öz əhəmiyyəti var. Belə ki, indi respublikanın müxtəlif şəhər və rayonlarında yüzlərlə kiçik və orta sahibkar çalışır ki, onların da iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafında rolu getdikcə artır.



Azərbaycanda biznesin mütləq əksəriyyətini - 99,6 faizini mikro, kiçik və orta sahibkarlıq təşkil edir. 2021-ci ilin nəticələrinə əsasən, qeyri neft-qaz sektoru üzrə yaradılmış əlavə dəyərdə KOB-ların payı 27,5 faiz olub. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

Nazirin bildirdiyinə görə, KOB-ların qeyri-neft ixracında payı 2020-ci ildəki 31,8 faizdən ötən il 59,8 faizə yüksəlib. Bu kateqoriyadan olan bizneslərin dövriyyəsi 2021-ci ildə 20 milyard dollara yaxın olub və ölkə üzrə biznesin ümumi dövriyyəsinin 32 faizdən çox hissəsini, qeyri-neft ÜDM-nin isə 56,5 faizini təşkil edib.

Məhz buna görə də dövlət sahibkarlıq fəaliyyətini dəstəkləyir, sahibkara hərtərəfli dəstək göstərir. Bununla bağlı indiyədək çoxlu sayda fərman və sərəncamlar, digər sənədlər imzalanmışdır. Məlum olduğu kimi, sahibkarlıq fəaliyyətinə böyük dəstək göstərəcək daha bir sənəd - "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" yeni qanun layihəsi işlənib hazırlanmışdır.

Qanun layihəsi 5 fəsildən və 15 maddədən ibarət olub mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində münasibətləri tənzimləyir, sahibkarlıq subyektlərinə göstərilən dövlət dəstəyinin təşviqinin forma və metodlarını müəyyən edir. Sənəddə mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində qanunvericilik, dövlət siyasətinin məqsədləri, prinsipləri və əsas istiqamətləri, sahibkarlıq subyektlərinə dəstək göstərilməsinin şərtləri, formaları, qaydası və qiymətləndirilməsi ilə bağlı maddələr təsbit olunub. Burada eləcə də dövlət maliyyə dəstəyi, məsləhət və informasiya dəstəyi, subyektlərin innovasiya, məhsul istehsalı və xidmət sahəsində dəstəklənməsi və digər məsələlərlə əlaqədar maddələr özünə yer alıb.

Bu sənədə əsasən, mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən səlahiyyətli qurumun yanında daimi fəaliyyət göstərən koordinasiya qrupunun yaradılması nəzərdə tutulub. Bununla yanaşı, səlahiyyətli qurum sahibkarlıq subyektləri haqqında müvafiq məlumatların daxil edildiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestrini yaradır. Vahid reyestrin aparılması qaydası və həmin reyestrə daxil edilməli olan məlumatların siyahısı mikro, kiçik və orta sahibkarlıq subyektlərinin vahid reyestri haqqında əsasnamə ilə müəyyən edilir.

Bir sözlə, sahibkarlıq fəaliyyətinin daha da genişlənməsi və keyfiyyətcə yüksəlməsi üçün bu, olduqca əhəmiyyətli bir addımdır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizin keyfiyyətcə yeni strateji inkişaf mərhələsinə daxil olduğunu vurğulayaraq demişdir: "Kiçik və orta sahibkarlığın əhatə dairəsinin genişləndirilməsi, yeni daha səmərəli və ünvanlı dəstək mexanizminin yaradılması ilə ölkədə biznes mühitinin inkişafı daha da sürətlənəcək. Hazırda agentliyimiz tərəfindən kiçik və orta sahibkarlığa dövlət dəstəyi, ticarət şəbəkələrinə çıxış və müxtəlif maliyyə dəstək tədbirləri təklif olunur. Qanun layihəsinin hazırlanması da belə dəstəklərdən biridir. Qanun layihəsi ilə bağlı Avropa Yenidənqurma və İnkişaf Bankının ekspertlərinin rəyi də nəzərə alınıb, qanun layihəsi beynəlxalq təcrübədən bəhrələnərək hazırlanıb. Qanun layihəsi kiçik və orta sahibkarlığın inkişafı üçün bu sahədə pərakəndəliyi aradan qaldırmaq məqsədini daşıyır. Qanunun tətbiqi rəqabətqabiliyyətli biznes mühitini gücləndirməklə investisiya cəlbediciliyinin və ən əsası, gələcəkdə məşğulluğun daha da artmasına təkan verəcək".

Qeyd edək ki, qanun layihəsi Milli Məclisdə artıq iki oxunuşdan keçib.

Yeni dövrün çağırışlarına uyğun olaraq KOB mühitinin inkişafı baxımından yeni qanun layihəsinin əhəmiyyəti Bakıda keçirilən "Kiçik və Orta Bizneslərin Beynəlxalq Şəbəkəsinin - INSME - 18-ci İllik Toplantısı" mərasimində də qeyd olunub. Qabaqcıl beynəlxalq təcrübələr nəzərə alınmaqla hazırlanan bu sənədin KOB sektorunun inkişafının və dövlətin dəstək tədbirlərinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsinə xidmət edəcəyi vurğulanıb. KOBİA və Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin (INSME) prezidenti Serdjio Arzeni deyib: "Sahibkarlıq və KOB-ların inkişafı siyasətindən başqa, rəqabət qabiliyyətinin və KOB-larda çalışanların bilik və bacarıqlarının artırılması siyasəti həddən çox vacibdir. Biz Azərbaycanda KOB-lara ünvanlanan siyasəti gücləndirmək istəyirik. İqtisadi şaxələndirmə sahəsində inkişaf önəmlidir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Rusiya Ukrayna xalqını işıqsız qoyub

## Odessada su və enerji təchizatı yoxdur, eləcə də digər şəhərlərdə bütün qazanxanaların fəaliyyəti dayandırılıb

Rusiyanın Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsinin 287-ci günündə rus qoşunları qonşu ölkənin ələ keçirdiyi yaşayış məntəqələrini nəzarətdə saxlamaq cəhdlərini davam etdirir. Ukraynanın silahlı qüvvələri və ərazi müdafiə bölmələri ruslara müqavimət göstərir.



Dekabrın 5-6-da Rusiya ordusu Ukraynaya növbəti kütləvi raket hücumu həyata keçirib. Baş nazir Denis Şmıqal bildirib ki, raketlər üç vilayətdə infrastruktura ziyan vurub. Bu arada Moldova Daxili İşlər Nazirliyinin əməkdaşları Ukrayna ilə sərhəddən çox da uzaq olmayan Briçeni şəhəri yaxınlığında Rusiyaya məxsus raket parçaları tapılıb.

Hökumət başçısının dediyinə görə, zərbələr nəticəsində Kiyev, Vinnitsa və Odessa vilayətlərində enerji obyektləri zədələnib. Xilasedicilər artıq bütün evlərə işıq vermək üçün hücumun nəticələrini aradan qaldırmağa çalışırlar.

Ukrayna Prezidenti Vladimir Zelenski Rusiyanın atdığı raketlərin əksəriyyətinin hava hücumundan müdafiə qüvvələri tərəfindən vurulduğunu bildirib. "Mən hava hücumundan müdafiə qüvvələrinə təşəkkür etmək istəyirəm - raketlərin əksəriyyəti vuruldu. Energetiklər artıq elektrik xətlərini bərpa etməyə başlayıblar. Xalqımız təslim olmur".

Daha sonra ukraynalılara gündəlik müraciətində o, Rusiyanın zərbələri nəticəsində 4 nəfərin həlak olduğu barədə məlumat verib: "Təəssüf ki, biz hələ də səmamızın təhlükəsizliyini tam təmin edə bilmirik - bir neçə zərbə olub, qurbanlar var. Hazırda Rusiya zərbələri nəticəsində sutka ərzində həlak olanların siyahısında dörd nəfər var".

Ukrayna Hərbi Hava Qüvvələri Komandanlığı rusların 70 raket atdığını, onlardan 60-dan çoxunun vurulduğunu açıqlayıb. Məlumata görə, Xəzər dənizi və Volqodonsk rayonundan səkkiz təyyarədən 38 ədəd X-101 və X-555 qanadlı raketləri, Qara Dəniz Donanmasının gəmilərindən 22 ədəd "Kalibr" qanadlı raketi və Qara dəniz bölgəsindəki təyyarələrdən daha 10 ədəd X-22, X-59 və X-31P qanadlı raketi atılıb. Ümumilikdə işğalçıların 60-dan çox raketi vurulub.

Rusiya Müdafiə Nazirliyi bildirib ki, "yüksək dəqiqlikli hava və dəniz silahları ilə hərbi komandanlıq və idarəetmə sisteminə, müdafiə kompleksinin əlaqəli obyektlərinə, rabitə mərkəzlərinə, Ukraynanın energetika və hərbi hissələrinə zərbələr endirib. Məqsədə nail olunub. Təyin olunmuş 17 hədəfin hamısı vurulub". Həmçinin bildirilir ki, "zərbə nəticəsində Ukrayna Silahlı Qüvvələrinin ehtiyat hissələrinin, xarici silahların, hərbi texnikanın və döyüş sursatlarının dəmir yolu ilə döyüş bölgələrinə daşınması pozulub".

Moldova hakimiyyətinin məlumatına görə, Rusiyanın zərbəsindən az sonra Ukraynanın Çernovtsı vilayəti ilə sərhədə yaxın Briçeni şəhəri yaxınlığındakı meyvə bağında raket parçaları tapılıb.

Daxili İşlər Nazirliyinin bəyanatında deyilir: "Moldovanın Briçeni şəhərindən bir qədər aralıda bağda raket tapılıb. Sərhəd polisinin patrulu tərəfindən partlayıcı obyekt aşkar edilib. Bu, Rusiyanın bugünkü bombardmanları ilə əlaqədar olaraq sayıqlığı artırıb".

"Moldelectrica" enerji şirkətindən isə bildirilib ki, srağagünkü zərbələr Moldovada yenidən elektrik enerjisinin kəsilməsinə səbəb olub.

Oktyabrın sonunda Ukraynanın hava hücumundan müdafiəsi tərəfindən vurulan Rusiya raketinin fraqmentləri Moldovanın sərhəd bölgəsinə düşmüşdü. Bundan sonra Kişinyov rusiyalı diplomatın ölkədən çıxarıldığını elan edib, Rusiya isə Moldova diplomatını ölkədən çıxarmaqla cavab verib.

Bu arada Ukraynanın "İnfoksvodokanal" İdarəsi xəbər verir ki, Odessada raket hücumları nəticəsində bütün nasos stansiyaları və ehtiyat xətlər enerjisizləşdirilib, şəhərdə su təchizatı yoxdur. Odessanın bəzi ərazilərində elektrik nəqliyyatı fəaliyyətini dayandırıb, tramvay və trolleybuslar işləmir. Bundan başqa, şəhərin istilik təchizatı müəssisəsi bütün qazanxanaların fəaliyyətinin dayandırıldığını bildirib.

Bundan əvvəl Ukrayna Prezidentinin dəftərxanası məlumat vermişdi ki, Rusiya raketləri Odessa vilayətində iki infrastruktur obyektinə ziyan vurub.

Zaporojye vilayətində Rusiya raketləri Novosofiyevka kəndində bir neçə evi dağıdıb. Zaporojye Vilayəti Hərbi Administrasiyasının rəhbəri Aleksandr Starux bildirib ki, mülki əhalinin şəxsi evlərinə ziyan dəyib. İlkin məlumata görə, iki sakin həlak olub, üç nəfər yaralanıb. Onlardan biri 2021-ci il təvəllüdlü uşaqdır.

TASS agentliyinin xəbərinə görə, dünən səhər Ukraynanın şərqindəki Xarkov və Dnepropetrovsk vilayətlərində hava hücumu xəbərdarlığı elan edilib.

Donetsk vilayətinin Kiyevin nəzarətində olan hissəsində də hava xəbərdarlığının elan edildiyi vurğulanır.

Bütün Ukraynada hava hücumu xəbərdarlığı, ardınca ölkənin bir sıra şəhər və rayonlarında partlayışlar və elektrik enerjisinin kəsilməsi xəbərləri yayılıb.

Bu arada BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığının İdarəsi Ukraynadakı müharibə zamanı mülki əhalinin itkiləri ilə bağlı yeni statistik məlumatları açıqlayıb. Bildirilir ki, fevralın 24-dən dekabrın 4-dək 6702 mülki şəxs (424 uşaq) həlak olub, 10479 nəfər (775 uşaq) yaralanıb.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur "Made in Azerbaijan"a töhfə verəcək

## Azərbaycan şərab istehsalını genişləndirir

Azərbaycanda şərabçılığın kökü qədim dövrlərə gedib çıxsa da, sovet hakimiyyəti illərində ölkədə bu sahə daha da inkişaf etməyə başlamışdı. Bu dövrdə üzüm sahələrini genişləndirməyə maraqla birgə ölkədə fəaliyyət göstərən şərab istehsalı zavodlarının sənaye növünün inkişafına da təkan verilmişdi.




Həmin zavodlarda müxtəlif markalı şərablar istehsal olunaraq xarici bazara da çıxarılırdı. Elə bunun nəticəsi idi ki, ölkəyə bu sahədən gələn xarici valyuta getdikcə artmaqda idi. Həmin illərdə şərabçılığın inkişafı məqsədilə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi də yaradılmışdı. Komitənin fəaliyyəti şərabçılıq sənayesinin inkişafına töhfə vermək məqsədi üzərində qurulmuşdu.

Müəyyən dövrdən sonra Azərbaycanda üzümçülük təsərrüfatlarına, bu sahəyə marağın azalması şərabçılığa da təsirsiz ötüşmədi. Lakin şərabçılıq məhsullarının iqtisadi əhəmiyyəti nəzərə alınaraq son illərdə bu sahənin inkişafına diqqət yenidən artırıldı.

### Milli şərab brendlərinin formalaşdırılması

Azərbaycanda üzümçülük və şərabçılığın inkişafı istiqamətində atılan ilk addım bu sənaye sahəsinin qanunvericilik bazasının yaradılması oldu. Belə ki, 19 oktyabr 2001-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" qanun qəbul edildi. Sənəd üzümçülüyün təşkilinin, üzüm və şərabçılıq məhsulları istehsalının və dövriyyəsinin tənzimlənməsinin, habelə keyfiyyətinin təmin edilməsinin hüquqi əsaslarını müəyyən etdi. Qanunun məqsədi respublikada üzümçülüyün və şərabçılığın inkişafını təmin etməklə istehlak bazarına beynəlxalq standartların tələblərinə cavab verən, rəqabət qabiliyyətli üzüm və şərabçılıq məhsulları çıxarılmasına təşkilati, iqtisadi və hüquqi zəmin yaratmaq idi.

Bundan əlavə, ölkədə yeyinti sənayesi olan şərabçılığın inkişafı istiqamətində bir sıra tədbirlər də həyata keçirildi. Məsələn, Prezident İlham Əliyevin 2011-ci il 15 dekabr tarixli sərəncamı ilə təsdiq edilən "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" ölkədə üzümün və onun emal məhsullarının istehsalını artırmağı, ölkə əhalisinin təzə və keyfiyyətli üzümə tələbatını daha dolğun ödəməyi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatını yaxşılaşdırmağı nəzərdə tuturdu. Ölkədə üzüm bağlarının, bu sahəyə diqqətin artırılması şərab istehsalının yüksəlməsinə də stimul verirdi.

Dövlətin bu istiqamətdə atdığı mühüm addımlardan biri də Prezidentin sərəncamı ilə təsdiq edilən "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"dır. Proqram ölkədə şərabçılığın inkişaf etdirilməsi, bu sahənin gəlirliliyinin və ixracat potensialının artırılması məqsədilə yanaşı, şərabçılığın yeni inkişaf mərhələsinə keçirilməsini qarşıda duran əsas hədəf kimi nəzərdə tuturdu.

Beynəlxalq Üzümçülük və Şərabçılıq Təşkilatının üzvü olan Azərbaycan son illərdə bu sahədə mühüm addımlar atır. Aqrar-sənaye kompleksinin qədim sahələrindən olan şərabçılıqla bağlı beynəlxalq təcrübəni öyrənməklə milli şərab brendlərinin formalaşdırılması və onların qlobal arenada təbliği artıq müasir dövrün tələbidir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 2022-ci ilin yanvar-oktyabr aylarında 697.1 min dekalitr üzüm şərabı istehsal edilib. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 50 faizdən çoxdur.

Cari il noyabrın 1-nə olan məlumata görə, hazır məhsul ehtiyatı 933.2 min dekalitrdir.

Bu dövrdə 3.8 milyon dollar dəyərində 213 min dekalitr üzüm şərabı ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 26 faiz çoxdur.

### Enoturizmin inkişafı istiqamətində

Son illərdə Azərbycanda şərabçılığın inkişafı turizm sahəsində də özünü göstərir. Belə ki, enoturizm şəraba xüsusi marağı olan turistləri şərab istehsalında seçilən ölkələrə səyahət etməyə həvəsləndirir. Son 3-4 ildə müxtəlif şərab zavodlarına turların şahidi oluruq. İlk olaraq qeyd edək ki, enoturizm turistin şərabı zavodda dadması, istehsal prosesi ilə tanışlığı, üzüm bağlarına baş çəkməsi və şərab festivallarında iştirakı deməkdir. Onu da bildirək ki, Azərbaycanda ilk Üzüm və Şərab Festivalı 2019-cu ildə Şamaxı rayonunun Meysəri kəndində keçirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən festivalın məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması idi.

Festivala Şamaxının evsahibliyi etməsi isə heç də təsadüfi deyildi. Şamaxı Azərbaycanın üzümçülük diyarı kimi ad çıxarması ilə yanaşı, ölkəmizi də dünyada məşhur üzüm sortları ilə tanıdır. Üzümçülük sahəsində qədim və zəngin ənənələrə malik olan Şamaxıda Üzüm və Şərab Festivalının təşkili də bu sahəyə öz töhfəsini verir.

II Üzüm və Şərab festivalı isə bu il oktyabrın 1-2-də yenidən Meysəridə baş tutdu. İki gün ərzində layihənin keçiriləcəyi məkanda fermerlər məhsullarını təqdim edərək, dequstasiya pavilyonları quruldu.

### Pandemiya şərab ixracına təsir göstərsə də, dinamika yüksəlməkdədir

Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov şərabçılıq sənayesinin vəziyyəti ilə bağlı suallarımızı cavablandırarkən qeyd etdi ki, 2019-cu ildən başlayan pandemiya Azərbaycanda şərabçılıq sahəsinə də çox zərər vurub.

Onun sözlərinə görə, 2018-ci ildə qəbul olunan proqram 2025-ci ilə qədər nəzərdə tutulmuşdu: "Proqram öz axarı ilə gedirdi və yaxşı nəticələr verirdi. İxrac artaraq dəyəri 7,7 milyona çatmışdı. Pandemiya nəticəsində ölkədə şərab istehsalı, həm də ümumi ixrac 48-50 faiz azaldı. Konyak tipli içkilər isə ümumiyyətlə, 80 faizə qədər azaldı".

Elçin Mədətov deyir ki, göstəricilər 2021-ci ildə də eyni qalıb, artım olmayıb. Bu ilin əvvəlində də Rusiya-Ukrayna müharibəsi səbəbindən durğunluq olub. Buna baxmayaraq, cari ilin may ayından bu sahədə dirçəliş başlayıb və ilin 9 ayında şərab istehsalı və ixracında 19 faizdən çox artım olub. Konyak ixracında isə 40 faiz artım müşahidə olunub. Sədr düşünür ki, ilin sonuna kimi müsbət dinamika qalacaq, hətta rəqəmlər arta da bilər.

### Azərbaycan illik 1 milyon dekalitr şərab istehsal edə bilər

Elçin Mədətovun sözlərinə görə, "Made in Azerbaijan" brendi ilə ölkəmizin şərab üzrə əsas ixrac bazarı Rusiyadır. İxrac olunan şərabların təqribən 65-70 faizi Rusiya bazarına gedir. Əvvəl bu göstərici 80 faiz olsa da, indi diversifikasiya olunub. Bir bazardan asılılıq yaxşı hal hesab olunmur. Xammal ixracının isə 100 faizi Rusiya bazarı istiqamətində gedir. Buna baxmayaraq, Azərbaycan şərabı az da olsa, Orta Asiya ölkələri, Polşa, Niderland, Belçikaya da ixrac olunur. İlk yerdə Rusiya, daha sonra Belarus və Ukrayna dayanır. E.Mədətov deyir ki, Rusiya bazarındakı struktur dəyişiklikləri, həmçinin onlara tətbiq olunan embarqo və sanksiyalar Azərbaycandan Rusiyaya məhsulların ixracını artırıb.

Pandemiyadan öncə Çinə ixracatda yaxşı göstəricilər olduğunu deyən E.Mədətov bildirir ki, 1-2 il ərzində ixracın 7 faizi Çin bazarına gedib.

Onun sözlərinə görə, Azərbaycan illik 1 milyon dekalitr, təqribən 14 milyon şüşə şərab istehsal etmək gücündədir. Hazırda istehsal olunan şərabın 4-4,5 milyonu ixrac olunur, 10 milyon şüşə isə daxili bazarda istehlak olunur.

Azərbaycanda şərabçılıq sahəsinə maraq göstərən əsasən Rusiya biznesmenləridir.

Pandemiyaya qədər şərabçılıq sənayesindən ölkəyə 7,7 milyon dollar valyuta daxil olurdu. 2018-ci ildə qəbul olunan proqrama əsasən, bu rəqəm 5 dəfə artırılaraq, 35 milyon dollara çatdırılmalı idi. Təəssüf ki, bu, alınmadı, ixrac dəyəri hətta 4 milyon dollardan aşağı düşdü. 2022-ci ildə isə təqribən 3,8 milyon dollar dəyərində şərab ixrac olunub. Ötən dövrlərə nisbətən artım müşahidə olunur.

E.Mədətov qeyd edir ki, bu templə həmin göstəriciyə 3-4 il ərzində çatmaq mümkündür. Əsas məqsəd pandemiyadan qabaqkı rəqəmləri bərpa etməkdir. Dövlət proqramında nəzərdə tutulan 5 dəfə artım isə əlçatandır, bu, növbəti illərdə mümkün olacaq.

### Enoturizmlə bağlı aktiv işlər görülür

Şərab turizmi barədə danışan assosiasiyanın sədri bildirir ki, enoturizm dünyada, eləcə də ölkəmizdə inkişaf edib. Onun sözlərinə görə, Azərbaycanın mətbəxi, iqlimi turizm baxımından çox əlverişlidir. Bu istiqamətdə xarici şirkətlərlə, investorlarla əməkdaşlıq edilir: "Bu sahəyə də pandemiya təsirsiz ötüşməyib. Hazırda Rusiya, Gürcüstan ilə enoturizmin inkişafı istiqamətində aktiv çalışırıq".

İşğaldan azad olunmuş ərazilərdə hələ sovet dövründə şərabçılığın inkişaf etdiyini deyən mütəxəssis qeyd edir ki, həmin dövrdə respublikamızın bu bölgəsində 70 min hektar üzüm bağları olub. İşğal dövründə isə həmin bağlar dağıdılıb, talan edilib, eyni zamanda bədnam qonşular tərəfindən bəzi üzüm sahələri istismar olunub. Orada bir şərab zavodu qalıb ki, hazırda Dövlət Turizm Agentliyi tərəfindən bərpa olunur. Ərazilər minalardan tamamilə təmizləndikdən sonra şərabçılıq sahəsinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında inkişafı digər bölgələrdən daha güclü olmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

# Pərakəndə pay torpaqları müasir aqroparklara çevrilir



## Dünyada geniş yayılan bu təsərrüfat sistemi Azərbaycanda da özünü doğruldur

Dünya iqtisadiyyatında baş verən tendensiyalara diqqət yetirdikdə görürük ki, aqrar sektorun inkişafına və ərzaq təhlükəsizliyinin təminatına daha çox diqqət və vəsait ayrılır. Mütəxəssislər bunu iki mühüm faktorla əlaqələndirirlər: dünya əhalisinin sürətlə çoxalması və bunun nəticəsi olaraq kənd təsərrüfatı, yəni ərzaq məhsullarına olan ehtiyacın artması.

Bu baxımdan ölkəmizdə həyata keçirilən aqrar islahatların da məqsədi ərzağa olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsidir. Bəri başdan qeyd edək ki, həmin islahatlar, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət səviyyəsində olunan güzəştlər nəticəsiz qalmayıb. Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı dəfələrlə artıb, bir çox məhsulun idxalına son qoyulub, üstəlik, ixracda kənd təsərrüfatı və ərzaq məhsullarının çəkisi yüksəlib və s. Bütün bunlar hökuməti tam qane etməsə də, hər halda uğurdur və onların qazanılmasında aqroparkların rolu az olmayıb.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev dekabrın 2-də Oğuz və Şəki rayonlarına səfəri zamanı "Şəki-Oğuz" Aqroparkda görülən işlərlə tanış olmuşdur. 11 min hektar sahəsi olan aqropark bağçılıq və əkinçilik üzrə fəaliyyət göstərir. Burada əsasən qoz, badam və zeytun bağları salınır, taxıl bitkiləri əkilir. Layihənin ümumi dəyəri 30 milyon manatdır. Zəruri infrastrukturun yaradılmasına isə 67,8 milyon manat dövlət əsaslı vəsait qoyulmuşdur.

Aqroparkda dünya təcrübəsinin öyrənilməsinə də diqqət yetirilir. Belə ki, 2017-ci ildən başlayaraq "Aqroinkişaf-2017" MMC tərəfindən ölkəmizdə sənaye üsulu ilə qoz istehsalını həyata keçirmək üçün ABŞ-nin fermer təsərrüfatlarının və Avstraliyanın "Webster" şirkətinin təcrübəsi əsas götürülüb. Bu təcrübə hesabına aqroparkda 2 min hektar ərazidə damcı suvarma sistemi qurulub, 3 meteostansiya, fitolaboratoriya, ting istehsalı üçün soyuducu kameralar, mexanizasiya sahələri və anbar tikilib.

Aqropark fəaliyyət göstərdiyi qısa müddətdə müəyyən uğurlar da qazanıb. Cari il ilk dəfə olaraq "AzBadam" şirkətinə 1,2 ton məhsul satılıb və bu, son həddi deyil, müəssisə həmin istiqamətdə fəaliyyətini genişləndirməkdə qərarlıdır. Artıq 4 növ üzrə 160 hektar badam bağı salınıb və ilin sonunda bu rəqəm 300 hektara çatdırılacaq.

Məlumdur ki, indi dünyada aqroparkların yaradılmasına xüsusi diqqət yetirilir. Bu da səbəbsiz deyil. Uzun illər kənd təsərrüfatı rentabelli olmadığı üçün banklar bu sahəyə kredit ayırmağa maraq göstərməyib. Amma bu gün aqrar sektor dünyada gəlirli sahəyə çevrilib. O səbəbdən iri təsərrüfatlar olan aqroparklara kredit verilməsi risksiz sayılır. Üstəlik, aqroparklar sənaye sahəsinə çevrilir. Belə ki, aqroparklar təkcə kənd təsərrüfatı məhsulları yetişdirmir, həmçinin onların emalı və satışı ilə məşğul olur. Belə zəncirvari idarəetmə sistemi rentabelliyi artıran səbəblərdəndir.

Sirr deyil ki, xammalı hazır məhsula çevirən onun istehsalçısından daha çox qazanır. Ona görə də bu gün aqroparklar yetişdirdikləri kənd təsərrüfatı məhsullarını özləri emal edərək son məhsula çevirirlər ki, bu da onlara daha çox gəlir əldə etməyə imkan verir. Digər tərəfdən, aqroparklarda müasir elmin son nailiyyətlərindən istifadə olunduğu üçün məhsuldarlıq yüksək olur. Məsələn, hazırda ölkəmizin taxılçılıq sahəsində fermer təsərrüfatları hər hektardan 30 sentnerdən bir qədər çox məhsul götürürsə, fəaliyyət göstərən iri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq 50-60 sentnerdən yuxarıdır.

Ona görə də ölkəmizdə aqroparkları yaradan sahibkarlara güzəştli kreditlər verilir, torpaq sahələri ayrılır. Bu ilin avqust ayında Prezident İlham Əliyev "Ağsu Aqropark"ın fəaliyyəti ilə tanış olarkən bildirmişdir ki, Azərbaycanın 32 rayonunda 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. Aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bunlarla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri həyata keçirilib - investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-sına texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib. Onu da qeyd edək ki, Azərbaycanda aqroparklar üçün infrastruktur dövlət vəsaiti hesabına yaradılır.

Aqroparklar məşğulluq səviyyəsinin artmasında da mühüm rol oynayırlar. Bunu fəaliyyət göstərən aqroparklarda çalışan işçilərin sayı da (ümumilikdə 4491 nəfər daimi, 6303 nəfər isə mövsümi işlə təmin olunub, gələcəkdə isə əlavə 4672 iş yerinin yaradılması nəzərdə tutulur) göstərir.

Xatırladaq ki, daha bir aqropark Şərqi Zəngəzurda açılıb. Bu ilin oktyabr ayında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilanda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını ediblər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Şəhid ailələrinin arzu və istəkləri dinlənilmişdir





Azərbaycan Dövlət Aqrar Unviersitetində (ADAU) təhsil alan bir qrup şəhid ailəsinin üzvləri ilə görüş keçirilmişdir.

Görüşdə universitetin rektor vəzifəsini icra edən Zəfər Qurbanov bildirmişdir ki, şəhidlərin xatirəsi Azərbaycan xalqının qəlbində həmişə yaşayacaq. O, Vətən uğrunda canından keçən oğullarımızın təkcə onların deyil, hər kəsin övladı olduğunu qeyd etmiş, ADAU-da çalışan və təhsil alan qazilərin, şəhid ailələrinin üzvlərinin hərtərəfli diqqət və qayğı ilə əhatə olunduğunu diqqətə çatdırmışdır. Görüşdə şəhid ailələrinin arzu və istəkləri dinlənilmişdir.

Çıxış edən şəhid ailələrinin üzvləri onlara göstərilən diqqət və qayğıkeşliyə görə başda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva olmaqla, hər kəsə təşəkkür etmişlər.

# Yaponiyanın Azərbaycandakı səfiri Naftalanda olub



Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi Naftalan şəhərinə səfər edib.

Səfər çərçivəsində diplomat Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzovla görüşmüş, bir sıra məsələlər ətrafında müzakirələr aparmışdır.

Görüş zamanı səfirə Naftalan şəhərinin turizm imkanları və Naftalan nefti ilə aparılan müalicə üsulları ilə bağlı ətraflı məlumat verilmişdir.

Səfir görüş zamanı Yaponiya və Azərbaycan arasındakı dostluq münasibətlərindən söz açmış, mövcud əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu, həmçinin dünyaşöhrətli sağlamlıq mərkəzi olan Naftalana səfərindən məmnun qaldığını bildirmişdir.

Sonda tərəflər qarşılıqlı xatirə hədiyyələri təqdim etmişlər.

***"Azərbaycan"***

# Tovuzda Bozalqanlı kənd orta məktəbinin 100 illiyi qeyd edilmişdir

Tovuzda Yusif Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbinin 100 illik yubileyi qeyd edilmişdir.



Tədbirdə rayon rəhbərliyi ilə yanaşı, Milli Məclisin deputatları Qənirə Paşayeva, Arzu Nağıyev, Rauf Əliyev, Müşfiq Məmmədli, Sabir Hacıyev, professor Mayıl Əsgərov, Elm və Təhsil Nazirliyinin əməkdaşları, eləcə də məktəbin məzunları və müəllimləri iştirak etmişlər.

Tədbirdən əvvəl iştirakçılar Ulu Öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkındakı abidəni ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar. Sonra məktəb şagirdlərinin əl işlərindən ibarət sərgiyə baxış keçirmişlər.

Yubiley tədbiri Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək 100 illik yubiley münasibətilə məktəbin kollektivini təbrik etmiş, ölkəmizdə təhsil sistemində həyata keçirilən işlərdən, bu sahədə qazanılan uğurlardan danışmışdır. Sonra deputatlar Qənirə Paşayeva, Arzu Nağıyev, Rauf Əliyev, Müşfiq Məmmədli, Sabir Hacıyev, professor Mayıl Əsgərov, məktəbin direktoru Nüsrət Quliyev və digərləri məktəbin yaranma tarixindən və bu günə qədər keçdiyi inkişaf yolundan söhbət açmışlar.

Məktəbin 100 illik yubileyinə həsr olunmuş videoçarxın nümayişindən və xarici ölkələrdə yaşayan məzunların təbrikləri dinlənildikdən sonra rəngarəng konsert proqramı olmuşdur.

# Almaniyada yaşayan goranboylu iş adamı rayona investisiya qoymaq arzusundadır

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası ölkəmizin digər bölgələri kimi, Goranboy rayonunun da inkişafına böyük təkan vermişdir.




Həmin proqramlar çərçivəsində aqrar sahənin inkişafına göstərilən diqqət, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi rayonda bir sıra mühüm nailiyyətlərin əldə olunması ilə nəticələnmişdir.

Prezidentin yerlərdə investisiya qoyuluşunun cəlb edilməsi, sənaye zonalarının yaradılması və əhalinin məşğulluğunun artırılması ilə bağlı qarşıya qoyduğu tapşırıqlara uyğun olaraq Goranboyda yeni istehsal və emal müəssisələrinin yaradılması, istixana komplekslərinin tikintisi istiqamətində zəruri işlər görülmüşdür. "Med Life" müalicə və diaqnostika mərkəzinin fəaliyyətinin genişləndirilməsi və bu məqsədlə yeni korpusun inşasının aparılması, Goran qəsəbəsində və Muzdurlar kəndində kənd təsərrüfatı texnikalarının satış mərkəzlərinin fəaliyyətləri, Muzdurlar və Balakürd kəndlərində müasir damazlıq, ətlik və südlük heyvandarlıq komplekslərinin iqtisadi imkanlarının artırılması, Qızılhacılı qəsəbəsində müasir istixana kompleksinin yaradılması və bu kimi digər işlər rayonda sahibkarlığın bütün sahələr üzrə inkişaf etdiyini göstərir.

Bu günlər rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin rayonun Şəfibəyli kəndindən olan və hazırda Almaniyada yaşayan sahibkar İlham Qasımovla görüşü bu baxımdan gələcək əməkdaşlıq üçün yeni imkanlar açmışdır. RİH-in başçısı iş adamı ilə söhbəti zamanı rayonda sahibkarlara şəffaf mühit yaradıldığını, xarici və yerli investisiyaların rayon iqtisadiyyatına qoyuluşunun səmərə verəcəyini diqqətə çatdırmış, Prezident İlham Əliyevin özəl sektorun inkişafına yaratdığı şəraiti almaniyalı soydaşımızın diqqətinə çatdırmışdır.

İlham Qasımov rayonda yeni müəssisələrin yaradılması üçün geniş imkanları olduğunu qeyd etmiş və bunun üçün arzu və təkliflərini icra başçısının diqqətinə çatdırmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəmkirdə aqrar innovasiyalar festivalı keçirilmişdir



Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Şəmkirdə aqrar innovasiya festivalı keçirilmişdir. Festivalda kənd təsərrüfatı təyinatlı innovativ məhsul və texnologiyalar nümayiş etdirilmişdir.

Festivalın açılışında çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, Kənd Təsərrüfatı Nazirliyinin nümayəndəsi Rafail Quliyev, İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri Elşad Nuriyev, Şəmkir Aqroparkın rəhbəri Faiq Baxşıyev bu cür festivalların əhəmiyyətindən danışmışlar. Sonra Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov "Agroinnofest" layihəsinin təqdimatı ilə çıxış edərək festival barədə ətraflı məlumat vermişdir.

Festivalda kənd təsərrüfatı təyinatlı müxtəlif pilotsuz uçuş aparatları, müasir texnologiyalar əsasında əldə olunmuş əkin materialları, yeni üsullarla yetişdirilmiş meyvə və tərəvəz nümunələri, üzümün emal məhsulları, pambıq əkinində tətbiq olunan yeni texnologiyalar, müasir suvarma sistemləri və alternativ enerji mənbələri ilə çalışan su nasosları, heyvanlarda mövcud olan bir sıra xəstəliklərin diaqnozunun müəyyənləşdirilməsi üçün analiz testləri və çox sayda digər kənd təsərrüfatı texnikaları nümayiş etdirilmişdir.

Həmçinin festivalda mütəxəssislər tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına məsləhət xidməti göstərilmiş, nümayiş olunan innovativ texnologiyaların iş prinsipi və onlardan istifadənin üstünlükləri barədə məlumat verilmiş, "Kənd təsərrüfatında sığortalanan bitki növləri", "İntensiv yemləmənin təşkili", "İstixanalarda "ağıllı monitorinq sistemləri", "Sahibkarlara dəstək mexanizmləri", "Süd sağım sistemləri", "Gübrələr" mövzularında təlimlər keçirilmişdir.

Festivalın gündəliyinə uyğun olaraq aqroparkların, elmi-tədqiqat institutlarının və özəl şirkətlərin nümayəndələrinin birgə iştirakı ilə "Kənd təsərrüfatının innovativ yollarla inkişafı: Aqroparklar və əməkdaşlıq perspektivləri" mövzusunda "dəyirmi masa" təşkil olunmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Ağstafada yeni nasos stansiyası tikilir

Ağstafa Suvarma Sistemləri İdarəsi rayonun 21000 hektardan artıq əkin sahəsini suvarma suyu ilə təmin edir ki, bu da 2021-ci illə müqayisədə əlavə torpaq sahələrinin əkinə cəlb edilməsi hesabına 1543 hektar çoxdur.



Suvarmada 4 mənbədən istifadə edilir. Bunlar Ağstafaçay su anbarı, Həsənsu çayı, Ağ göl su anbarı və subartezian quyularıdır. Hazırda payızlıq dənli bitkilərin suvarılmasını təmin etmək üçün kanallarda lildən və kol-kosdan təmizləmə işləri aparılır.

Əkin sahələrinin 4203 hektarının su ilə təminatı rayon ərazisində fəaliyyət göstərən 266 subartezian quyusu vasitəsilə həyata keçirilir. Cari il 74 subartezian quyusunda təmir işləri aparılmış, nasaz mühərriklər yenisi ilə əvəz olunmuşdur. Nasos hissəsində aşınmaya məruz qalan hissələr də yenilənmişdir. Bu il 6 subartezian quyusunun qazılmasına da başlanılıb. Növbəti il rayon ərazisində daha 13 subartezian quyusunun qazılması planlaşdırılır.

Rayon ərazisində uzun illər fermerlərə xidmət edən və artıq istismar müddətini başa vuran nasos stansiyası da yenidən qurulur. Rayonda əkin sahələrinin suvarma suyu ilə təminatında əsas rol oynayan nasos stansiyasının inşası, eləcə də suvarma kanallarının beton üzlüyə alınması istiqamətlərində işlər sürətlə davam etdirilir. Bu işlər başa çatdırıldıqdan sonra rayonda əkin sahələrinin su ilə təminatında mövcud problemlər aradan qaldırılacaq.

# Qış deyəsən sərt keçəcək

Xəbər verildiyi kimi, son günlər ölkə ərazisində havalar kəsin soyumuş, dağlıq ərazilərə qar yağmışdır.

Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata görə, qar örtüyünün hündürlüyü Altıağacda 11, Daşkəsəndə 9, Şəkidə 8, Göygöldə 5, Qax, Lerikdə 4, Qubada 3, Qusar, Qrız, Şamaxı, İsmayıllı, Şahdağ, Xaltanda 2, Yardımlı, Qobustanda 1 santimetrə çatıb. Düşən yağıntının miqdarı Lənkəranda 18, Quba, Qəbələdə 6, Şabran, Astara, Tovuz, Şəkidə 5, Yardımlı, Göygöl, Göyçay, Balakən, Daşkəsən, İsmayıllı, Altıağac, Şəmkir, Ağstafa, Qusar, Gədəbəy, Sədərək, Oğuz, Qrız, Kürdəmir, Lerik, Bərdə, Zərdab, Beyləqan, İmişli, Sabirabad, Cəfərxan, Hacıqabul, Şərur, Naftalan, Qobustan, Gəncə, Xaldanda 4 millimetrədək olub.






**Ötən günün nəticələri**

**1/8 FİNAL**

**Mərakeş-İspaniya 0:0 (P.3-0)**

## Neymar çempion olacaqlarına inanır



Braziliya millisinin hücumçusu Neymar "DÇ-2022"nin 1/8 final mərhələsində Cənubi Koreyaya 4:1 hesabı ilə qalib gəldikləri oyundan sonra fikirlərini bildirib. O, ilk olaraq qrup mərhələsinin 1-ci turunda Serbiya ilə matçda (2:0) zədələndiyi vaxtı xatırladıb: "Zədələndiyim zaman çox qorxdum, çünki əla mövsümdən sonra hər şey yaxşı idi. Belə bir zədə almaq çox kədərlidir. Həmin gün ağladım və gecə yata bilmədim. Ailə üzvlərim nələr yaşadığımı bilirlər. Amma müalicələr nəticə verdi".

30 yaşlı futbolçu bildirib ki, hədəfləri mundialın qalibi olmaqdır: "Qələbə qazandıq və indi daha irəli getmək istəyirik. Finalda olmaq xəyalı qururuq. Qarşıda final üçün 2 matç qalıb. Biz yaxşı hazırlaşmışıq və diqqətimizi dünya çempionu olmağa cəmləmişik".

Qeyd edək ki, Neymar zədə səbəbindən qrup mərhələsinin digər görüşlərini buraxmışdı.

# ŞOK...

## "Ərəb rüzgarı" dünya çempionunu sovurdu



Dünən "DÇ-2022"də 1/8 finalın son oyunu keçirilib. Xorvatiya və Belçika kimi rəqiblərlə eyni qrupda birinci yeri tutan afrikalılar növbəti sensasiyanı gerçəkləşdirib. Əsas və əlavə vaxtda qolsuz heç-heçəyə nail olan Mərakeş penaltilərdə "Sevilya"nın mərakeşli qapıçısı Bononun 2 penalti zərbəsini qaytarması (daha 1 top dirəkdən qayıdıb) sayəsində 1/4 finala adlayıblar 3:0. Bununla da Mərakeş tarixində ilk dəfə mundialın 1/4 finalına vəsiqə qazanıb.

Qeyd edək ki, İspaniya millisinin ləqəbi "qırmızı qəzəb"dir. Fanatlar sevimli komandalarını "La Furia Roja" ("Qırmızı qəzəb") adlandırır. Bundan başqa, millinin "döyüşən buğalar", "buğalar", "toreros" və "matador" kimi ləqəbləri var. Yığma, ümumiyyətlə, Avropanın ən titullu komandalarından biridir. 16 dəfə Avropa çempionatında iştirak edən "buğalar" 3 dəfə turnirin qızıl medalçısı olub. İspaniya yığması 2008 və 2012-ci illərdə ardıcıl 2 dəfə olmaqla Avropa çempionatını qazanıb. Bu dövr ispanların qızıl dövrü kimi də yazılır.

İspaniya yığması 2010-cu ildə CAR-da keçirilən dünya çempionatının qalibi olub. Komandanı Luis Enrike çalışdırır. 52 yaşlı mütəxəssis 2019-cu ildən millinin sükanı arxasındadır.

"Qırmızı qəzəb"lərin heyətinin dəyəri 805 milyon avrodur. Ən bahalı oyunçu Pedridir. "Barselona"da çıxış edən 19 yaşlı yarımmüdafiəçinin qiyməti 90 milyon avrodur. Ən gənc oyunçu 18 yaşlı Qavi, ən yaşlı isə Serxio Busketsdir. Hər iki oyunçu "Barselona"nın üzvüdür.

Ləqəbi "Atlas aslanları" (Şimali Afrika aslanları) olan Mərakeş buna kimi 6 dəfə dünya çempionatlarında iştirak edib. Millinin mundiallarda ən böyük uğuru 1986-cı ilə təsadüf edir. İngiltərə, Polşa və Portuqaliya ilə bir qrupda mübarizə aparan "Atlas aslanları" növbəti raunda qrup birincisi kimi çıxıb. Yığma 1/8 finalda Qərbi Almaniyaya uduzaraq (0:1) mundialla vidalaşıb.

Afrika təmsilçisinin heyətinin dəyəri 227,40 milyon avrodur. Komandanın 25 üzvü legioner həyatı yaşayır. Ən dəyərli oyunçu Əşrəf Hakimidir. Fransada PSJ-də forma geyən müdafiəçinin qiyməti 65 milyon avrodur. Millidə "Bavariya"dan Nussar Mazraui, "Çelsi"dən Hakim Ziyeş kimi ulduz futbolçular çıxış edir. Millini Valid Reqraqui çalışdırır. O, bu ilin avqustunda komandaya baş məşqçi təyin olunub.

## Daha bir baş məşqçi istefa verdi



Cənubi Koreya millisinin baş məşqçisi Paulo Bento istefa verib. Bu barədə o, "DÇ-2022"-nin 1/8 finalında Braziliya millisinə 1:4 hesabı ilə uduzduqları oyundan sonra bildirib: "Gələcək haqqında düşünməliyik. Mən istefa barədə futbolçulara və Cənubi Koreya Federasiyasının prezidentinə bildirdim. Bu qərar hələ sentyabrda qəbul edilib. Oyunçulara fəallıqlarına görə təşəkkür etməliyəm. Onlar bütün güclərini ortaya qoydular və mən onların məşqçisi olduğum üçün şadam və qürur duyuram".

Qeyd edək ki, P.Bento 2018-ci ildən Cənubi Koreya millisini çalışdırırdı.

## "Yaponlar matçın asan olacağını düşünürdülər"

"Futbolçularımı təbrik edirəm, yaxşı oynadılar. Bu, əla nəticədir. Bütün matç ərzində mübarizə apardıq və mükafatlandırıldıq". Bu sözləri Xorvatiya millisinin baş məşqçisi Zlatko Daliç 1/8 finalda Yaponiyaya qalib gəldikləri oyundan sonra deyib.

Bildirib ki, bu, ona Rusiyada keçirilən dünya çempionatında yaşadıqlarını xatırladıb: "İlk hissədə oyuna nəzarət etdik, iki-üç əks-hücum bizi əsəbiləşdirdi. Sonra qol buraxdıq və özümüzü toparlamağa məcbur olduq. Yaponlar bizimlə matçın asan olacağını düşünürdülər, Xorvatiyanı düzgün qiymətləndirmədilər. Sona qədər irəliləyirik. Futbolçular yenə əzm və inam nümayiş etdirdilər".

Qeyd edək ki, Xorvatiya Rusiyada keçirilən mundialda finala kimi yüksəlib. Komanda həlledici görüşdə Fransaya 2:4 hesabı ilə uduzmuşdu.



## "Yalnız bir Kilian Mbappe var"

İngiltərə millisinin hücumçusu Bukayo Saka "DÇ-2022"nin 1/4 finalında Fransaya qarşı keçirəcəkləri oyundan əvvəl rəqib hücumçu Kilian Mbappe ilə müqayisə olunması haqda danışıb. O, açıqlamasında deyib: "Mən növbəti Mbappe ola bilərəmmi? Kompliment üçün təşəkkürlər, amma yox. Yalnız bir Kilian Mbappe var. Eyni zamanda yalnız bir mən var. Mən özüm olmaq və komandaya bacardığım qədər kömək etmək istəyirəm. Turnirdə çoxlu gənc oyunçu var, çox ad çəkə bilərəm. Hətta bizim komandada inanılmaz gənc oyunçu var. Bu, Jude Bellinqemdir. Mən sadəcə şadam ki, hamımız burada Qətərdəyik və yaxşı işlər görürük. Prioritet məqsəd ən yaxşı gənc futbolçu üçün fərdi mükafat deyil, dünya çempionatını qazanmaqdır.

Mbappeyə gəlincə, o, mənim üçün dünyanın ən yaxşı oyunçularından biridir. O, kosmik səviyyədə bir yerdədir. Biz onun hansı keyfiyyətlərə malik olduğunu bilirik və onu dayandırmağa çalışmalıyıq. Fransanın bir çox başqa keyfiyyətli oyunçuları var və biz bundan xəbərdar olmalıyıq".

Qeyd edək ki, Fransa-İngiltərə görüşü dekabrın 10-u keçiriləcək.

## Messi favoritlərini açıqladı

Argentina millisinin kapitanı Lionel Messi "DÇ-2022"də favoritlərini açıqlayıb. O, ölkəsinin yığması ilə yanaşı, daha 4 komandanı qeyd edib: "Argentina çempionluğa namizədlərdən biridir. Komandamız çox güclüdür və həmişə ən yaxşılar sırasındadır. Biz iddialı olduğumuzu bilirdik, ancaq bunu meydanda sübut etməli idik. Avstraliyaya qarşı bir daha göstərdik ki, favoritlər sırasındayq.

Dünya çempionatında izləyə bildiyimiz bütün matçlara baxırıq. Braziliya çox yaxşı irəliləyir. Yenə də əsas favoritlərdəndir. Fransanı da xüsusi qeyd edə bilərəm. Almaniyanın qrupdan çıxa bilməməsinə təəccübləndim. Onların çox yaxşı oyunçuları var və həmişə dünya çempionatlarında uğurlu çıxış ediblər. Belə tez mübarizəni dayandırmaları təəccüblüdür. Eyni zamanda bu, dünya çempionatının nə qədər çətin olduğunu göstərir. Artıq milli komandanın adı yox, meydanda gördüyün iş önəmlidir. Getdikcə hər şey bərabərləşir".

Argentina millisi dünya çempionatının 1/4 finalında Niderlandla üz-üzə gələcək.



## FİFA-dan Qrizmana cavab



FİFA Fransa Futbol Federasiyasının (FFF) millinin hücumçusu Antuan Qrizmanın "DÇ-2022"nin qrup mərhələsinin sonuncu turunda Tunislə matçda (0:1) vurduğu qolu ilə bağlı müraciətini rədd edib. Qol.az xəbər verir ki, bu barədə qurumun saytı məlumat yayıb. FFF oyun qaydalarındakı VAR-ın final fitindən sonra qolu ləğv edə bilməyəcəyini bildirən bənd əsasında hakimin qərarından apelyasiya şikayəti verib. Buna baxmayaraq, FİFA-nın qərarına əsasən, görüşün nəticəsi dəyişdirilməyəcək.

Qeyd edək ki, 90+8-ci dəqiqədə Fransa yığmasının hücumçusu Antuan Qrizman qol vuraraq hesabı bərabərləşdirib. Bununla belə, görüşün baş hakimi Metyu Konqer final fitindən sonra VAR-a müraciət edib və ofsayta görə qol ləğv edilib.

Xatırladaq ki, məğlubiyyətə baxmayaraq, Fransa D qrupunda lider kimi 1/8 finala yüksəlib və burada Polşaya 3:1 hesabı ilə qalib gələrək 1/4 finala çıxıb.

## Sautqeyt komandasından razıdır

İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt "DÇ-2022"nin 1/8 finalına Seneqala qalib gələrək (3:0) 1/4 finala adlamaları barədə danışıb. Mütəxəssis yalnız nəticədən deyil, komandasının çıxışından da razı qaldığını deyib: "İlk 25 dəqiqədə bir az gərgin idik. Seneqalda çox enerji vardı, komanda yaxşı pressinq etdi. Ən yaxşı imkanlarımız mübarizədən sonra gəldi. Cud Bellinqhem və Cordan Henderson oyunun bu aspektində yaxşı idi. Soyuqqanlı davranmağımızdan, komandanın topla və topsuz işləməsindən məmnun qaldım. Qol vura biləcəyimizi göstərdik. Lazım olanda amansız davrana biləcəyimizi göstərdik. Həqiqətən vacib anlarda qol vurduq. Biz həmçinin göstərdik ki, qapını təmiz saxlaya bilərik. Bu, Fransaya qalib gəlmək üçün çox vacib olacaq".

## Junior qələbəni Peleyə həsr etdi

Braziliya millisinin futbolçusu Vinisius Junior dünya çempionatının 1/8 finalında Cənubi Koreyaya qalib gəldikləri oyundan (4:1) sonra fikirlərini bildirib. Hücumçu finala qədər getmək istədiklərini deyib: "Hədəfimiz çempionluqdur. Finala qədər rəqs etmək istəyirik. Bu qələbəni əfsanəvi futbolçumuz Peleyə həsr edirik".

Braziliya 1/4 finalda Xorvatiya ilə qarşılaşacaq.



# Livakoviç 3-cü oldu

Xorvatiya millisinin qapıçısı Dominik Livakoviç yeni uğura imza atıb. O, buna "DÇ-2022"nin 1/8 finalında Yaponiya ilə matçda penaltilər seriyasında üç zərbəni dəf etməklə nail olub. Beləliklə, 27 yaşlı qolkiper mundial tarixində bir oyunda üç penaltini dəf etməyi bacaran 3-cü qapıçı olub.

Bunu əvvəl "DÇ-2006"da Portuqaliya millisinin qapıçısı Rikardo İngiltərəyə qarşı matçda, "DÇ-2018"də Xorvatiya yığmasının qolkiperi Daniel Subaşiç Danimarka ilə görüşdə 3 penaltini dəf edib.

## Levandovski növbəti mundialda olacaqmı?



Polşa yığmasının hücumçusu Robert Levandovski dünya çempionatının 1/8 finalında Fransaya uduzduqları matçdan sonra fikirlərini bildirib. 33 yaşlı forvard 1:3 hesabı ilə başa çatan görüşlə bağlı bunları deyib: "Əlimizdən gələni etdik. Mübarizə apardıq, şanslar yaratdıq. Lakin son zərbələrdə uğursuz olduq. Həqiqətən, nə bacardıqsa, etdik. Fransaya qarşı müdafiə olunmaq çətindir. Qol buraxandan sonra vəziyyəti dəyişməyə çalışsaq da, alınmadı".

Levandovski Qətərdəki mundialın onun üçün son dünya çempionatı ola biləcəyini də qeyd edib: "Növbəti turnirə 4 il var. Bilmirəm, hazırda bu haqda düşünməmişəm. Bir neçə səbəb var. Hazırda futboldan zövq alıram və önəmli olan budur".

***Hazırladı:***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 08.12.2022-ci il saat 23:00-dan etibarən 09.12.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## Azercell abunəçilərinin nəzərinə!

10.01.2023-cü il tarixdən etibarən Kabinetim mobil tətbiqində hal-hazırda mövcud olan "Mobil Ödəmə" xidməti ləğv ediləcək. Abunəçilər "Mobil Ödəmə" xidmətindən qeyd olunan tarixədək yararlana bilərlər.

Eyni zamanda nəzərinizə çatdırırıq ki, 21.09.2022-ci il tarixdən etibarən abunəçilərimizin istifadəsinə "akart" xidməti təqdim edilib. "akart" abunəçilərə mobil ödəmə xidməti çərçivəsində bir çox servislərdən və daha geniş partnyor şəbəkəsindən yararlanmaq imkanını təqdim edir.

**Qeyd:** Abunəçilər edilən dəyişikliklər, "akart" xidməti, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim olunan digər xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri və ya Azercell Eksklüziv mağazaları, 7/24 fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə tələb olunan emallı məftillərin satın alınması məqsədilə
### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun balansında olan energetik qurğuların və sistemlərin etibarlı istismarının təmin edilməsi məqsədilə illik texniki xidmətlərin satın alınması məqsədilə
### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun balansında olan alternativ enerji mənbələrinə illik texniki xidmətin satın alınması məqsədilə
### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi tərəfindən 12 may 2022-ci il tarixdə elan edilmiş "Tibb müəssisələri üçün tibbi avadanlıqların və tibbi alətlər"in satın alınmasına dair açıq tender (3 milyon ABŞ dollarının manat ekvivalentindən çox) metodu ilə keçirilən satınalma prosedurunun qalibləri Tender komissiyasının qərarına əsasən "Jba Group" MMC, "Medaz" MMC, "Medsol" MMC, "MedPharma" MMC, "Medifarma" MMC, "Vitta Elmi-Texnik" MMC, "Medeks" MMC, "Solamedical" MMC, "İmago Co" MMC, "Azəri Med" QSC müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs ilə "Jba Group" MMC ilə 24 noyabr 2022-ci il tarixdə, "Medaz" MMC ilə 28 noyabr 2022-ci il tarixdə, 2 (iki) müəssisə ilə "Medsol" MMC və "MedPharma" MMC ilə 1 dekabr 2022-ci il tarixdə və 6 (altı) müəssisə ilə "Medifarma" MMC, "Vitta Elmi-Texnik" MMC, "Medeks" MMC, "Solamedical" MMC, "İmago Co" MMC, "Azəri Med" QSC-lər arasında 2.12.2022-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



## OXUCULARIN NƏZƏRİNƏ!

### "Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC
### pirotexniki vasitələrin utilizasiyası (məhv edilməsi) üzrə xidmətlərin satın alınması məqsədilə açıq
### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 14 dekabr 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### ASCO-nun balansında olan istilik qazanxanalarına və sistemlərinə illik texniki xidmətlərin satın alınması məqsədilə
### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### SAP ERP sistemi üçün yeni lisenziyaların satın alınması məqsədilə
### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəh, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyevaya əzizi

**YAVUZ ONKUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyevaya əzizi

**YAVUZ ONKUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyevaya əzizi

**YAVUZ ONKUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi Suad Mahmudova atası

**FUAD MAHMUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Fuad Ramazanova atası

**SƏFƏR RAMAZANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı İşçilərinin Həmkarlar İttifaqı Komitəsi Nizami rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin yerli həmkarlar ittifaqı təşkilatına uzun müddət sədrlik etmiş

**ZEYNƏB ABASQULİ QIZI AĞAMALIYEVANIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və rayon birliyinin kollektivinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6484
Sifariş 3451
Qiyməti 40 qəpik